Xalqın qəzeti!

# Xalq qəzeti

№ 275 (30391) 16 dekabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Zəfərin ilk addımı:

## YAP öz namizədini irəli sürdü




**Seçim etməli olan insan bilməlidir ki, o, iki variantdan birini seçə bilər – ya keçmişin xeyrinə seçim edər, ya da gələcəyin!**

**Salvador Maddi**

Salvador Maddinin bu sözlərinin ekzistensial-psixoloji mənası geniş və dərindir. Onun siyasi interpretasiyası isə daha maraqlıdır. Hər bir seçici siyasi seçimi gələcəyin xeyrinə etdiyini necə duya bilər? Bu suala cavablar da müxtəlifdir. Lakin, məncə, əsas olanı seçicinin güvəndiyi, etibar etdiyi və arxasınca getməyə hazır olduğu liderin xeyrinə seçim etməsi elə gələcəyin xeyrinə olan seçimdir! Burada alimlərin vurğuladıqları həyəcan, risk, qeyri-müəyyənlik arxa plana keçir. Çünki həmin faktorlar həmişə və hər yerdə vardır. Həm də bunu bilərək seçimi arxasınca gedə bildiyin, güvəndiyin və "etibarlılıq krediti" (E.Hollander) yüksək olan liderə səs versən, gələcəyin xeyrinə seçim etmiş olursan! Xatırladaq ki, siyasətçinin "etibarlılıq krediti", qeyri-standart (o cümlədən, böhranlı, riskli) situasiyalarda uğurlu fəaliyyəti ilə ölçülür.

### Zəfərlərdən – zəfərlərə

Seçki mövzusu müstəqil dövlət üçün həmişə aktualdır. Azərbaycanda keçirilən seçkilərin təcrübəsi göstərir ki, bu sahədə böyük tərəqqiyə nail olunmuşdur. Müasir Azərbaycan Respublikası tarixi baxımdan qısa bir müddətdə çox sınaqlardan keçmiş, bəzən çətinliklərlə mübarizə aparmışdır.

Lakin ulu öndər Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə gəldikdən sonra, bütün sahələrdə olduğu kimi, seçkinin təşkili və uğurla keçirilməsində də köklü dəyişikliklərə nail oldu. Heydər Əliyev, faktiki olaraq, müasir şəraitdə gənc, müstəqil və totalitar rejimdə 70 il mövcud olmağa məhkum olunmuş, çox çətin regional şəraitdə suverenliyini təmin etməyə çalışan dövlətə yeni seçki mədəniyyəti gətirmişdir.

(ardı 3-cü səhifədə)

## YAP seçki marafonuna start verdi



**Dekabrın 15-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin genişləndirilmiş iclası keçirilib.**

İclası açan YAP Sədrinin müavini–Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 2023-cü ilin Azərbaycan xalqının və dövlətinin tarixinə çox əlamətdar il kimi düşdüyünü bildirib. Onun sözlərinə görə, bu il ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar ölkəmizdə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilib. Eyni zamanda, dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2024-cü il fevralın 7-nə Azərbaycan Respublikası Prezidenti seçkiləri təyin olunub.

YAP Sədrinin müavini qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə möhtəşəm nailiyyətlər qazanılıb, dövlətimizin və xalqımızın qarşısında ən ümdə vəzifə olan Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin edilib: "Ulu öndərimizin dahiyanə söylədiyi bir fikir var: "Vaxt gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq". Prezident İlham Əliyev bu gün məhz ulu öndər Heydər Əliyevin yaratdığı güclü təməllər üzərində müasir, suveren, bütöv və yeni Azərbaycanı qurub. Düşünürəm ki, bu Zəfər yürüşünün davamı qarşıdan gələn seçkilərdən əhəmiyyətli dərəcədə asılıdır".

(ardı 5-ci səhifədə)

## Avropa İttifaqı genişlənməyə hazırlaşır



Səhifə ⇨ 11

## Vaşinqton raundu üçün "sürpriz gündəm"



**Ermənistan Azərbaycana qarşı növbəti ittiham irəli sürüb. İttihamın nədən ibarət olduğunu əsaslandırmaq üçün Hayastanın xarici işlər naziri Ararat Mirzoyanın bir neçə gün əvvəl bildirdiklərini yada salaq. Mirzoyan tam gözlənilməz şəkildə demişdi ki, Azərbaycanla müzakirə olunan məsələlərdən biri də hər iki ölkənin sərhəddən qoşunlarını geri çəkməsidir. Daha doğrusu, İrəvan bunu Bakıya təklif edib.**

Məlum olduğu kimi, Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov təklifin ölkəmiz üçün qəbuledilməzliyini açıqlayıb. O, Bakıda səfərdə olan türkiyəli həmkarı Hakan Fidanla birgə keçirdiyi mətbuat konfransında deyib ki, Ermənistan–Azərbaycan sərhədinin delimitasiyası aparılmayıb: "Tam sərhəd üzrə razılıq olmayan bir zamanda qoşunlar sərhəddən çəkilərsə, orada nələrin baş verə biləcəyinə kim zəmanət verə bilər? Bu təklif Azərbaycan tərəfi üçün qəbuledilən deyil. Azərbaycan Ordusu bu gün öz sərhədlərini qoruyur. Mən sərhədlərdən qoşunların çəkilməsi ilə bağlı Ermənistan XİN başçısının açıqlaması ilə razı deyiləm. Azərbaycan Ordusu 30 ildən sonra şəhidlər verərək, öz sərhədlərini bərpa edib. Azərbaycan sərhədləri yalnız Azərbaycan əsgərləri tərəfindən qoruna bilər".

(ardı 6-cı səhifədə)




## Orta Dəhliz Türk dünyasının ortaq yoludur

**Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" telekanalına müsahibəsində ölkənin iqtisadi inkişafı ilə bağlı hər hansı bir risk görmədiyini, bu günədək, daha mürəkkəb geosiyasi vəziyyətdə belə iqtisadi inkişafda müsbət meyillər müşahidə edildiyini, hətta ərazilərimizin işğal olunduğu illərdə respublika iqtisadiyyatının böyüdüyünü bildirib.**

Dövlətimizin başçısı daha sonra ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edildiyini, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tikinti-quruculuq tədbirlərinin sürətlə həyata keçirildiyini vurğulayıb.

(ardı 7-ci səhifədə)

## Yeni texnologiyalar neft hasilatını yüksəldir

Səhifə ⇨ 7

## Azərbaycan müəllimlərinin XVI qurultayı



**Dünən Bakı Konqres Mərkəzində ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən Azərbaycan müəllimlərinin XVI qurultayı işə başlayıb.**

Qurultayda ümumi, orta ixtisas, peşə, ali təhsil və elmi müəssisələrdən 1600-dən çox nümayəndə iştirak edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qurultay iştirakçılarına məktubunu Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev hesabat məruzəsi ilə çıxış edib. Nazir son illərdə təhsil sahəsində həyata keçirilən islahat və layihələrdən danışıb. Azərbaycan təhsilinin inkişaf strategiyasının banisi ümummilli lider Heydər Əliyevin bu sahədəki uğurlu siyasətini vurğulayan nazir Prezident İlham Əliyevin təhsilə olan diqqət və qayğısını xüsusilə qeyd edib.

(ardı 8-ci səhifədə)

## Ermənistanda Putinə qəzəb və İrəvanın anti-Rusiya motivləri



Səhifə ⇨ 6

## Çağırışlar üzərindən üslub oyunu




Səhifə ⇨ 4

# COP29-un Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq uğurudur

## Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə



**Dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə çıxış etdi.**

### Prezident İlham Əliyevin çıxışı

– Bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atmışdır, COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı.

Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi.

Düzdür, antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda, bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir. Bəzi Qərb ölkələri, onların arasında təbii ki, ənənəvi olaraq Fransa bununla barışmaq fikrində deyil. Halbuki, artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar.

Bir də bəzi hallarda beynəlxalq aləm, beynəlxalq birlik anlayışı Qərbdə təhrif edilir. Beynəlxalq birlik 30-40 ölkə deyil. Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil. Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir.İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik. Hətta bu il Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirmişik. Onu da hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilmişdir. Ancaq təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

Hesab edirəm ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Ona görə biz dərhal bütün hazırlıq işlərinə start verməliyik. Bizim vaxtımız o qədər də çox deyil, 11 aydan az vaxtımız var. Ona görə mən hesab etdim ki, birinci müşavirəni öz sədrliyimlə keçirim, bütün lazımi tapşırıqları verim. Bu tapşırıqların yerinə yetirilməsi barədə müntəzəm olaraq mənə məlumat veriləcək.

Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək.

# Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin investisiya nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası – COP28-in Dubayda uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Məhəmməd Həssən Əl Suveydi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı bu yaxınlarda Birləşmiş Ərəb Əmirliklərinə səfərini və səfər çərçivəsində bu ölkənin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşünü məmnunluqla xatırladı.

Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli dostluq münasibətlərinin bir çox sahədə uğurla inkişaf etdiyi bildirildi, müxtəlif səviyyələrdə təmasların əməkdaşlığımızın möhkəmlənməsi işinə xidmət etdiyi qeyd olundu.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un gələn il Azərbaycanda keçirilməsi barədə qərar beynəlxalq aləmdə ölkəmizə göstərilən böyük etimadın və hörmətin nümunəsi kimi dəyərləndirildi.

Söhbət zamanı bu gün imzalanacaq sənədlərin önəmi qeyd edilərək bunun iqtisadi sahədə əməkdaşlığın və ümumilikdə əlaqələrimizin uğurlu inkişafının yaxşı göstəricisi olduğu bildirildi.

Sonra sənədlərin imzalanması mərasimi oldu.

Azərbaycan İnvestisiya Holdinqi və Əbu-Dabi İnkişaf Holdinq Şirkəti arasında Birgə sərmayə çərçivə razılaşması imzalandı.

Razılaşmanı Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydi imzaladılar.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi arasında data mərkəzləri layihələrində investisiya əməkdaşlığı haqqında Anlaşma Memorandumu imzalandı.

Memorandumu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydi imzaladılar.

# Azərbaycan müəllimlərinin XVI qurultayının iştirakçılarına

**Hörmətli qurultay iştirakçıları!**
**Əziz müəllimlər və təhsil işçiləri!**

Azərbaycan müəllimlərinin XVI qurultayının öz işinə başlaması münasibətilə sizi ürəkdən salamlayır, ölkəmizin təhsil işçilərinə ən xoş arzularımı yetirir, hamınıza cansağlığı və şərəfli fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

Bu qurultay "Heydər Əliyev İli" çərçivəsində keçirilməsi və Ümummilli liderin 100 illik yubileyinə həsr olunması ilə əlamətdardır. Ulu öndər genişmiqyaslı fəaliyyətində təhsilin dinamik inkişafına həmişə həssaslıqla yanaşmış və misilsiz qayğı göstərmişdir. Təhsil ocaqlarımız yüksəliş mərhələlərini məhz Heydər Əliyevin rəhbərliyi dövründə yaşamışdır. Milli təhsildə zamanın çağırışlarına müvafiq, gələcək perspektivlər yönündə atılan uğurlu addımlar həmin dövrdə ardıcıl surətdə gerçəkləşdirilmiş dövlət siyasətinin nəticəsidir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrasına başlanılmasından bəri keçən müddətdə təhsilin bütün pillə və səviyyələrində innovativ təşəbbüslərin tətbiqi genişləndirilmişdir. Təhsil sistemində idarəetmənin qabaqcıl dünya təcrübəsinə uyğun təkmilləşdirilməsinə, universitetlərimizin beynəlxalq reytinq cədvəllərində irəliləməsinə, təhsilin elmlə inteqrasiyasının dərinləşdirilməsinə daim xüsusi diqqət yetirilir. Kadr ehtiyatının səriştəlilik baxımından gücləndirilməsi, müəllim peşəsinin ictimai nüfuzunun möhkəmləndirilməsi və müəllim fəaliyyətinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

Azərbaycan təhsil sisteminin mütərəqqi beynəlxalq meyarlara əsaslanması rəqabətqabiliyyətli insan kapitalının hazırlanması prosesinə töhfəsini verməkdədir. İstedadlı gənclərimizin xarici ölkələrin tanınmış ali təhsil müəssisələrində təhsil almalarına dövlətimiz hər bir lazımi dəstəyi təmin edir.

Vətən müharibəsindəki parlaq qələbəmizdən dərhal sonra azad olunmuş ərazilərimizdə ən müasir standartlarla tikilən məktəblər artıq fəaliyyətdədir. Bu məktəblərdə gələcəyimizin layiqli vətəndaşları oxuyurlar. Yeni yaradılan Qarabağ Universiteti isə, şübhəsiz, regionda tarixən mövcud olmuş təhsil mühitini çox yaxın vaxtda canlandıracaqdır.

Ötən dövrün dolğun təhlilini apararaq təhsil sahəsində strateji məqsədlərə nail olmaq və Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulmuş hədəflərə çatmaq əzmi ilə ali məclisinizin ətraflı müzakirələr şəraitində mühüm qərarlar qəbul edəcəyinə və ölkənin intellektual potensialını təhsildə dayanıqlı inkişaf naminə sıx birləşdirəcəyinə əminəm.

İnanıram ki, xalqımıza Zəfər sevinci yaşadan igid və qəhrəman övladlarımızın formalaşması naminə müstəsna əmək sərf etmiş fədakar müəllimlərimiz gənc nəslə bundan sonra da mükəmməl bilik verməklə yanaşı, onların milli-mənəvi dəyərlərə bağlılıq və azərbaycançılıq məfkurəsi ruhunda böyümələri üçün var qüvvə ilə çalışacaqlar.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2023-cü il**

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələrin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin aşağıdakı əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələr verilsin:

### "general-leytenant" ali hərbi rütbəsi

general-mayor Etibar Rəsul oğlu İsmayılova

### "general-mayor" ali hərbi rütbəsi

polkovnik Şahin Əyyub oğlu Mirzəyevə

### "daxili xidmət general-mayoru" ali xüsusi rütbəsi

daxili xidmət polkovniki Aqşin Böyükağa oğlu Kazımova

daxili xidmət polkovniki Asif Eltufat oğlu Məmmədliyə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2023-cü il**

# Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 600,0 (altı yüz) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2023-cü il**

# Ceyhun Bayramov QDİƏT-in iclasında COP29-un önəmini qeyd edib

**Dekabrın 15-də Xarici İşlər naziri Ceyhun Bayramov videokonfrans formatında baş tutmuş Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının 47-ci iclasında çıxış edib.**



Çıxış zamanı QDİƏT-in növbəti illər ərzində prioritetlərini müəyyən edəcək İqtisadi Gündəliyinin yekunlaşdırılmasının, xüsusilə nəqliyyat və bağlantıların genişləndirilməsi istiqamətində fəaliyyətin əhəmiyyəti vurğulanıb.

Ölkəmizin bölgədə nəqliyyat və kommunikasiyaların inkişafı sahəsində əməli addımlar atdığını, bu istiqamətdə görülən işlərin öz növbəsində Orta Dəhlizin imkanlarının genişləndirilməsinə də töhfə verəcəyi vurğulanıb.

Enerji təhlükəsizliyi sahəsində Cənub Qaz Dəhlizi layihəsinin genişlənməsinin əhəmiyyətindən bəhs edən nazir Ceyhun Bayramov, bu istiqamətdə "yaşıl enerji" sahəsinin inkişafının prioritetimiz olduğunu bildirib.

Növbəti il ərzində ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası – COP29-a evsahibliyi edəcəyini qeyd edən nazir Ceyhun Bayramov, sözügedən tədbirin qlobal iqlim dəyişikliyinin qarşısının alınmasına töhfə olması üçün ölkəmizin bütün səylərini səfərbər edəcəyini söyləyib.

***XQ***

# Zəfərin ilk addımı:

## YAP öz namizədini irəli sürdü

(əvvəli 1-ci səhifədə)

Bu proses 1993-cü ilin payızından başlamışdır. 1998-ci ildə artıq yeni Konstitusiya əsasında daha şəffaf və demokratik seçki təşkil edilmişdir. 2003-cü ildən isə həm seçki prosesində, həm də ölkəyə rəhbərlikdə yeni mərhələ başlamışdır. 2018-ci il son Prezident seçkisində İlham Əliyev 86, 02 faiz səslə dövlət başçısı seçilmişdir.

Əlbəttə, bu seçkilərin hər birinin əhəmiyyəti şübhəsizdir və müstəqil Azərbaycan Respublikası üçün ciddi uğurdur. Ancaq 2024-cü ilin fevralında keçirilməsi nəzərdə tutulan növbədənkənar Prezident seçkisinin əhəmiyyəti və strateji hədəfləri xüsusi məna daşıyır. Bu, yalnız seçki deyildir, həm də Azərbaycanın uğurlarının, qazandığı zəfərlərin tarixi təsbiti və təsdiqidir. Azərbaycan Avrasiya məkanında indi müşahidə etdiyimiz yüksəkliyə qalxa bilən yeganə müstəqil dövlətdir! Və bunun memarı XXI əsrin yeni liderlərindən olan İlham Əliyevdir!

Yeni Azərbacyan Partiyasının (YAP) 2024-cü ilin fevralın 7-də olacaq Prezident seçkilərinə öz namizədini irəli sürməsini yazımızda belə başlamağa tam haqqımız vardır. Çünki məhz YAP-ı Azərbaycana müasir mərhələdə yüksək seçki mədəniyyətini qazandırmış ulu öndər Heydər Əliyev yaratmış, ilk lideri olmuş və eyni zamanda, hazırda böyük uğurla partiya ilə yanaşı, Azərbaycan Respublikasına liderlik edən İlham Əliyev onun siyasi varisidir!

Məhz YAP-ın qurucusu və əbədi lideri Azərbaycanda yeganə olaraq Ümummilli liderliyə yüksəlmişdir!

Məhz YAP-ın indiki sədri bütün Azərbaycanın lideri olduğunu, Böyük Millət Quruculuğu prosesini başladığını, hərb meydanında müzəfferliyini, müstəqil dövlət quruculuğunda böyük nailiyyətlər əldə etdiyini və bütün Türk dünyası üçün liderliyini qəbul etdirən şəxsiyyət olduğunu təsdiqləmişdir!

Bütün bunlara və indi konkret müraciət etmək imkanında olmadığımız digər faktlara görə, YAP-ın namizəd irəli sürməsini bütün Azərbaycan toplumu üçün tarixi məna daşıdığını dərk etmək və qiymətləndirmək lazımdır! Bəli, YAP yalnız Azərbaycan Respublikası cəmiyyətinin deyil, bütün dünyada yaşayan hər bir azərbaycanlının qəlbində olan namizədi irəli sürmüşdür – İlham Əliyevi!



### Seçki fenomeni: Azərbaycan nümunəsi

Məsələnin siyasi-nəzəri aspekti daha maraqlıdır. İndi Azərbaycanda dünya ökələrində çox nadir rast gəlinən bir mərhələ başlamışdır: sosial həmrəylik seçki həmrəyliyinə keçid etmişdir! Nəzəri-siyasi baxımdan bu, maraqlı fenomendir. Məsələ ondan ibarətdir ki, sürətlə dəyişən müasir tarixi mərhələdə konkret bir ölkədə sosial həmrəyliyə nail olmaq mürəkkəb prosesdir. Hətta, dünyanın ən inkişaf etmiş ölkələrində belə buna nail ola bilmirlər. Nümunə kimi, Avropa İttifaqı dövlətlərini göstərmək olar. Yurgen Habermas kimi görkəmli filosof Aİ-də həmrəyliyin fəlsəfi modelini axtarmaqdadır. XXI əsrin ilk onilliklərində alman filosof yazırdı ki, avropalılar Aİ daxilində səmərəli sosial-siyasi həmrəylik modelini tapmayana qədər bu təşkilatın siyasi aqibəti qeyri-müəyyəndir. Brexsit bunu təsdiq etdi.

Hazırda Aİ-nin ayrı-ayrı ölkələrində ideoloji və siyasi qarşıdurmalar, neofaşit, islamofobiya, ultra millətçilik, radikal solçuluq və sağçılıq və sair kimi dağıdıcı, ayırıcı tendensiyalar getdikcə güclənir. Siyasi populizm cəmiyyətləri parçalayır.

Belə bir şəraitdə hansısa seçki həmrəyliyindən danışmaq mümkün deyildir. Əksinə, seçki öncəsi və gedişində radikal proseslər baş alıb gedir. ABŞ-da keçirilmiş son prezident seçkiləri buna əyani nümunə ola bilər. Orada qarşıdurmalar o qədər kəskinləşdi ki, bir sıra politoloqlar istehza ilə sual etdilər: “Bura Amerikadır?”

Fransa ayrıca bir siyasi populizm hekayəsidir. Orada da son prezident seçkilərində aləm bir-birinə qarışmışdı.

Belə çıxır ki, demokratiya və liberalizmdən danışsalar da, avropalılar seçkidə həmrəylikdən, dinc gedişatı təşkil etməkdən uzaqdırlar!

Vurğuladığımız faktların fonunda Azərbaycanda 2018-ci ildə keçirilən və gələn il keçiriləcək seçkiyə münasibətdə ciddi fərq görürük. Xüsusilə, 2024-cü ildə olacaq növbdənkənar Prezident seçkiləri ərəfəsi ölkədə mövcud olan əhval-ruhiyyə çox böyük nikbinlik yaradır.

Azərbaycan yüksək səviyyədə sosial-siyasi həmrəyliyə nail olmuş ölkədir. Burada cəmiyyət tam olaraq Prezidentini dəstəkləyir. II Qarabağ savaşının gedişi və ondan sonra başlanan postmüharibə mərhələsi xalqın İlham Əliyevə inamını, etibarını, güvəncini yeni yüksəkliyə qaldırdı!

İlham Əliyev ölkənin ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi. Davamlı uğurlu və orijinal siyasi-diplomatik addımları ilə Azərbaycanın geosiyasi nüfuzunu daha da yüksəltdi, təsirinin əhatə dairəsini genişləndirdi, ölkəmizi regionun söz sahibi etdi.

İlham Əliyev xalqı, milləti, hər bir azərbaycanlını yüksək dərəcədə qiymətləndirdiyini bir addımı ilə növbəti dəfə sübut etdi. Prezident 2 Azərbaycan əsgərini əsirlikdən qurtarmaq üçün ağır hərbi cinayətlər törətmiş 32 erməni silahlısını qaytardı! Bu, bir Prezidentin öz vətəndaşlarına verdiyi qiymət və yüksək dəyərdir! İlham Əliyev iyirmi il bundan əvvəl dövlət başçısı kimi and içəndə “mən hər bir azərbaycanlının Prezidenti olacağam!” vədinə tam əməl edir! YAP-ın namizədi bu cür yüksək liderlik qüdrətinə, mənəvi-əxlaqi keyfiyyətlərə, ədalət və mərhəmət hissinə malik böyük şəxsiyyətdir!

Deməli, bizim “seçki həmrəyliyi” adlandırdığımız siyasi, sosial və ideoloji xarakterli fenomen birbaşa Iham Əliyevin əldə etdiyi uğurdur. Bu tezisin fonunda sosial həmrəylikdən seçki həmrəliyi transformasiyasının siyasi-nəzəri və fəlsəfi mənasını dərk etmək olar. Belə görünür ki, seçki həmrəyliyinin Aərbaycan münunəsi birbaşa Prezdentin idarəçilik və liderlik fəaliyyəti ilə bağlıdır. Konkret əldə etdiyi uğurlar sayəsində Azərbaycan Prezidenti bütün toplumu ətrafında birləşdirə bilmiş və siyasi-ideoloji konsolidasiyaya nail olmuşdur. Azərbaycanda sosial-ideoloji həmrəyliyin seçki həmrəyliyinə keçidində bu faktlar başlıca rol oynamışdır.

### Seçki həmrəyliyi nədir?

Bu anlayış cəmiyyətin bütün sosial kəsimləri ilə yanaşı, siyasi palitrasının da açıq və ya gizli, sözlü və ya sözsüz bir siyasətçinin liderliyini qəbul etməsini ifadə edir. Və o dərəcədə qəbul edir ki, seçkidə məhz onun qalib olacağına seçkidən öncə inanır, əmin olur. Burada maraqlı bir siyasi vəziyyət formalaşır.

Bir tərəfdən, istənilən siyasi qüvvənin seçkidə iştirakına heç bir maneə yoxdur. Hər bir partiya qanun çərçivəsində öz namizədini irəli sürə bilər. Digər tərəfdən isə namizədin özü qalib gələ bilməyəcəyini bəri başdan duyur.

Doğrudan da bu, siyasi, ideoloji və psixoloji baxımdan maraqlı hadisədir. Əlbəttə, alternativlik prinsipi tam ödəniləcək. Əlbəttə, öz şanslarını sınayacaq siyasilər olacaqlar. Və əlbəttə, seçki tam şəffaf və demokratik keçəcək! Bunda ən çox maraqlı olan da YAP-ın namizədidir!

Deməli, burada siyasi təcrübə toplamaq baxımından seçkidə uduzanlar da çox faydalanacaqlar. Onlar nadir halda rast gələnən bütün cəmiyyəti əhatə edən seçki həmrəyliyi şəraitində təbliğat prosesini necə aparmağı sınaqdan keçirəcəklər. Bu təcrübə nə zamansa, kimlərəsə başqa situasiyada faydalı ola bilər.

Eyni zamanda, seçki həmrəyliyi politoloji araşdırmalar üçün yeni nümunələr verəcək. Bu fenomenin elmi dərki olduqca faydalıdır!

Ən böyük dərsi isə bütövlükdə, Azərbaycan siyasi səhnəsində qalmaq istəyənlər çıxarmalıdırlar: Azərbaycanda seçkidə uğur qazanmağın bircə yolu var – konkret müsbət nəticəli və milli dövlətçiliyə xidmət edən fəaliyyət göstərmək! Artıq nə Azərbaycandakı seçki mədəniyyəti, nə xalq, nə Konstitusiya, nə də müasir reallıq başqa variantı qəbul etmir. Hər bir Azərbaycan siyasətçisi bu aksiomu qəbul etməlidir!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

## Milli Məclis Sədrinin Mərakeş Baş naziri ilə görüşü



**Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 15-də Mərakeş Krallığının Baş naziri Aziz Axanuş ilə görüşüb.**

Baş nazir Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi münasibətilə təbriklərini çatdıraraq, ölkəmizin işğaldan azad edilmiş ərazilərini bərpa etməsini mühüm addım kimi qiymətləndirib.

Bildirilib ki, Azərbaycan və Mərakeş beynəlxalq təşkilatlarda da uğurla əməkdaşlıq edir və həmrəylik nümayiş etdirirlər. Ölkələrimiz ərazi bütövlüyü və suverenlik məsələlərində bir-birini dəstəkləyir.

Spiker Sahibə Qafarova qeyd edib ki, ölkələrimizin mövcud potensialından istifadə etmək, müxtəlif sahələrdə əməkdaşlığı şaxələndirmək və daha da artırmaq üçün imkanlar var. O, bu mənada Hökumətlərarası Birgə Komissiyanın əhəmiyyətli platforma olduğunu vurğulayayıb.

Söhbət zamanı qeyd edilib ki, ölkələrimiz arasında əlaqələrin daha da inkişafı baxımından müqavilə-hüquq bazasının yaradılmasında parlamentlər də mühüm rol oynayır.

***

Milli Məclisin Sədri Sahibə Qafarova dünən Mərakeş Krallığının  xarici işlər, Afrika ilə əməkdaşlıq və xaricdəki mərakeşlilərlə iş üzrə naziri Naser Burita ilə də görüşüb.

Nazir Naser Burita Azərbaycanın Mərakeş üçün qardaş ölkə olduğunu söyləyərək, ölkələrimiz arasında əlaqələrin dinamik inkişaf etdiyini vurğulayıb. Onun sözlərinə görə, həm Mərakeş, həm də Azərbaycan öz regionlarının mühüm aktorlarıdır və Mərakeş Azərbaycanı regionda mühüm tərəfdaş kimi görür.

Sahibə Qafarova Azərbaycan parlamentinin rəhbəri kimi Mərakeş Krallığına bu ilk rəsmi səfəri çərçivəsində keçirdiyi görüşlər və apardığı müzakirələr barədə məlumat verib. Ali qanunvericilik orqanlarımız arasında əlaqələrin daha da inkişafı, parlamentlərimizin komitələri, dostluq qrupları arasında əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi bildirilib.

***Ə.BƏDƏLOV***
***XQ***

## ABŞ səfiri etimadnaməsinin surətini XİN-ə təqdim edib

**Dekabrın 15-də Xarici İşlər naziri Ceyhun Bayramov ABŞ-ın ölkəmizə yeni təyin olunmuş səfiri Mark Libbi ilə görüşüb.**



Görüş zamanı səfir Mark Libbi etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Görüşdə iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, regionda mövcud vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin perspektivləri müzakirə olunub.

Azərbaycanla ABŞ arasında bir sıra istiqamətlərdə tarixi əməkdaşlıq münasibətlərinin əhəmiyyəti və qarşılıqlı maraqlar çərçivəsində ikitərəfli münasibətlərin inkişafının vacibliyi qeyd olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın Ermənistanla sülh prosesinin əsas elementlərinin təşəbbüskarı kimi bölgədə sülh və sabitliyin bərqərar edilməsində maraqlı tərəf olduğunu vurğulayıb.

Görüşdə, habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

## Komando bölmələrinin xüsusi təlimi



**Cari ilin hazırlıq planına uyğun olaraq komando bölmələri ilə taktiki-xüsusi təlim keçirilib.**

Ssenariyə əsasən “Həyəcan” siqnalı ilə qaldırılan bölmələrə təxribat törətməyə cəhd edən şərti düşmən qruplaşmasının zərərsizləşdirilməsi üzrə tapşırıqlar verilib.

Ərazinin vizual müşahidəsi və havadan kəşfiyyatın aparılması ilə şərti düşmən obyekti qiymətləndirildikdən sonra onun hərbi texnikası pusquya salınıb, qruplaşmanın üzvləri ələ keçirilib.

Meşəlik ərazilərdə keçirilən taktiki-xüsusi təlim zamanı qarşıya qoyulan bütün tapşırıqlar yüksək peşəkarlıqla icra edilib.

***XQ***

# Çağırışlar üzərindən üslub oyunu

## Kremlin İrəvana tərs mesajları

**Dünyanın nizamının pozulduğunun, qütblərin yerdəyişməsinin şahidi olduğumuz təbiətdə və beynəlxalq müstəvidə bəziləri buna qədərki maraq və prinsiplərindən əl çəkmədiklərini göstərirlər. Belə münasibət dünyanın heç də ədalətsizlik üzərində qurulmadığını isbatlayan, haqlı olduğunu əyani şəkildə aləmə yayan sivil, demokratik quruluşlara qarşı da sərgilənir. Ötən minillikdən qalmış idarəetmə üsullarından, münasibətlər kompleksindən əl çəkməyə tələsməyən "böyüklər", hətta öz aralarında döyüşəndə belə, bunun fəsadları kiçiklərdən də yan keçmir. Bəli, mövcudluq limiti tükənmişlərin "aqoniyası" bəzən ağrılı olur və uzun çəkir. Nə olar, bunu da "keçid dövrü"nün ayağına yazaq.**






### "Fövqəladə hadisə"ni Bakı yaradıb

"Ermənistanda Qarabağla bağlı çətin proseslər gedir. Qarabağdan imtina edən biz deyildik. Bu torpaqların Azərbaycanın ayrılmaz hissəsi olduğunu Ermənistan tanıyıb. Bunu bəyan edərkən, Rusiyaya məlumat verilməyib". Vladimir Putinin illik mətbuat konfransında dilə gətirdiyi bu fikirlər kənar skeptiklərdə maraqlı və əndişəli düşüncələrə zəmin yarada bilər. Yəni, Kreml sahibinin məntiqindən həm də belə qənaət hasil ola bilər ki, əgər İrəvan Qarabağdan imtina etməsəydi, Rusiya Azərbaycana özünün tarixi ərazisi üzərində suverenliyini, Konstitusiya hüququnu bərpa etməsinə imkan verməyəcəkdi? Bu, Qarabağ mövzusunda Rusiya Prezidentinin oxşar üslubda və siyasi məntiqdə ilk açıqlaması deyil. O, hər dəfə "Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığını etiraf edib" fikrini elə linqvistik formada ifadə edir ki, sanki, heç kimin gözləmədiyi fövqəladə hadisə baş verib. Fövqəladə hadisəyə 2023-cü il sentyabrın 19–20-də şanlı ordumuz öz imzasını atdı. Azərbaycan bir sutkalıq antiterror tədbiri ilə təkcə Qarabağımızda deyil, bütün Cənubi Qafqazda separatizmin mövcudluğuna son qoydu. Nəticədəhayların nə Xankəndidəki qondarma respublikasından, xunta rejimindən, nə də "dqr"ın hansısa atributundan əsər-əlamət qalmadı. Məhz bundan sonra Ermənistan hakimiyyətinin sülhə ikitərəfli dialoqla gəlməyin mümkünlüyünə loyallığı müşahidə olundu. Amma, o da məlumdur ki, tərəflər sülh danışıqlarının vasitəçisiz aparılması ilə bağlı siyasi iradə ortaya qoyanda, Brüssel və Vaşinqton kimi, bundan Moskva da ciddi əndişələnməyə başladı.

### Oyun qaydalarını kim pozur?

Ermənistan 44 günlük müharibədə uduzub və məğlub tərəfin baş naziri düşdüyü hərbi-siyasi situasiyaya adekvat olaraq Azərbaycanın ərazi bütövlüyünü tanımaq məcburiyyətində qalıb. İndi Bakının tarixin arxivinə göndərdiyi münaqişənin, guya, başa çatmadığını bəyan edən Putin sanki sadəcə arxada buraxılan həmin mərhələ üzərində söz oyunu aparırmış kimi davranır. Belə deyilsə, onda onun "Ermənistanda Qarabağla bağlı çətin proseslər gedir" ikibaşlı və müəmmalı açıqlamasını necə başa düşmək olar?

Aydın məsələdir ki, rəsmi Moskvanın bu kimi bəyanatları verməkdə məqsədi üzünü ondan döndərib Qərbə tutmağa meyilli İrəvana indiki mərhələdə diplomatik üslubda dərs verməkdir. Kremlin Ermənistan hakimiyyətinin üzərinə siyasi ritorikalı "linqvistik hücumlarının" nə ilə nəticələnəciyini isə yaxın gələcəkdə görəcəyik. Burada söhbət şimal qonşumuzun qüsuru kimi sadəcə oyunun qaydalarını pozmasından gedə bilər. Axı Bakı ABŞ-a, Fransaya inandığı kimi, ATƏT-in Minsk qrupunun üçüncü həmsədri Rusiyanın da Qarabağ "səmimiyyətinə" on illər boyu şübhə etməmişdi.

Əslinə qalsa, Rusiya təkcə ermənilərin qarşısında deyil, bütövlükdə, Qafqazda bir sıra problemlərin yaranmasında qəbahətlər işlədib. Dünən bunu görməzdən gələnlər bu gün açıq mətnlə Kremlə etiraz səslərini çatdırırlar.

### Təhlükəli və riskli addımlar

Kremlin eyni siyasi ritorikasını jurnalistlər üçün keçirdiyi ənənəvi həftəlik brifinqində Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarovadan da eşitdik.

"Rəsmi Moskva Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr, 11 yanvar və 26 noyabr 2021-ci il, 31 oktyabr 2022-ci il tarixli bəyanatlarından ibarət üçtərəfli sazişlər kompleksindən imtina etmək cəhdlərini təhlükəli hal hesab edir. Ermənistanla Azərbaycan arasında hələlik sülh müqaviləsinin olmadığını nəzərə alaraq, biz bu mühüm sənədləri inkar etmək cəhdlərini son dərəcə təhlükəli hesab edirik", – deyən M.Zaxarova belə bir addımın, ilk növbədə, Ermənistanın özü üçün ciddi risklərlə nəticələnəcəyinin qaçılmaz olacağını bəyan edib.

Rusiya xarici diplomatiya idarəsinin təmsilçisi diqqəti Qərbli "psevdovasitəçilərin" vasitəçilik missiyalarının heç bir fayda verməyəcəyinə yönəldir: "Rusiyadan fərqli olaraq, ABŞ və Aİ heç də Ermənistana və Cənubi Qafqazın digər ölkələrinə sülh və sabitlik gətirməyə çalışmırlar. Onların əsas məqsədi bizi və digər regional oyunçuları Balkanlar, Yaxın Şərq və Ukraynadan sonra yeni bir gərginlik mənbəyi yaratmağa çağırmaqdır".

Sadaladığı sənədlərdə boynuna götürdüyü öhdəliklərdən "imtina cəhdlərinin ciddi risklərlə nəticələnəcəyini" – deyərkən M.Zaxarova, əslində, Bakı və İrəvan arasında sülh danışıqlarında əsas vasitəçi kimi Moskvanın mövqeyinin nəzərə alınmasının vacibliyini nəzərə çatdırır.

### Türkiyə ilə bərabər Avropaya

Aydındır ki, Bakı və İrəvan öz aralarında "tet-a-tet" formatda danışmağa razılığa gəlsələr də, Qərb sülh prosesinin Vaşinqton və Brüssel platformalarında davam etdirilməsi istəyindən əl çəkmək istəmir. Dünən Vaşinqtondan, bu gün Moskvadan Azərbaycan və Ermənistan XİN başçılarının vasitəli görüşlərə dəvət olunmaları da onların uğursuz missiyalarını yenidən dövriyyəyə salmaq cəhdlərindən başqa bir şey deyil. Açıq büruzə verməsə də, İrəvan da sülh müzakirələrinin kənar aktorların – ABŞ və Avropa İttifaqının vasitəçiliyi ilə aparılmasını arzulayır.

Qarabağ münaqişəsinin nizamlanması üçün uzun müddət Qərb platformasından istifadə edən Azərbaycan üçün isə mövcud şəraitdə bu masa artıq sərfəli deyil. Çünki Bakının bu platformasında əldə edə biləcəyi heç nə qalmayıb. İndi bu platformalarda sülh sazişinə salmağa və müzakirəyə çıxarılmağa çalışılan məsələlər məhz İrəvanın arzu və istəyinə uyğundur. Burada isə kommunikasiyanın qarşılıqlı açılması mövzusu önə çəkilir.

Bakı İrəvanla vasitəçisiz, birbaşa dialoqun tərəfdarı olduğunu bəyan edib. Amma onu da yaxşı anlayır ki, Avropa İttifaqı ilə münasibətlər baxımından Qərb platformasından tamamilə imtina da düzgün siyasi gediş sayıla bilməz. Azərbaycan məhz buna görə danışıqlar masasında Türkiyənin təmsilçilik məsələsini irəli sürür. Bu mövqeyi iki gün əvvəl Bakıda rəsmi səfərdə olan qardaş ölkənin XİN başçısı Hakan Fidanla görüşündə onun azərbaycanlı həmkarı Ceyhun Bayramov bir daha açıqlayıb. Bakının Qranada görüşündən məhz Türkiyənin iştirakı qəbul olunmadığına görə imtina etməsi bütün tərəflərə məlumdur. Yəni, Qərb Bakının bu tələbindən xəbərdardır. Ola bilsin ki, sülh danışıqlarının həmin platformalarda davam etdirilməsi zərurəti yaranarsa, Bakı Vaşinqton danışıqlarının Azərbaycan–Türkiyə–ABŞ–Ermənistan, Brüssel təmaslarının isə Azərbaycan–Türkiyə–Avropa İttifaqı–Ermənistan formatında aparılması şərtini irəli sürsün.

Bu gün tam şəffaf, balanslı siyasət yürüdən, dediyi sözün arxasında duran Azərbaycanın bu şərtinin qəbul ediləcəyinə hamıdan çox yenə Moskva heyrətlənəcək.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**

**Asif NƏRİMANLI,**
**siyasi şərhçi**



Rusiya lideri Vladimir Putinin Qarabağla bağlı məlum açıqlaması, hesab edirik ki, məsuliyyəti Ermənistan hakimiyyətinin üzərinə qoymaq gedişidir. Ona görə ki, Azərbaycanın Qarabağda erməni separatizminə son qoymasından və suverenliyini bərpa etməsindən sonra İrəvan–Moskva xəttində "günahkar kimdir?" qarşdurmasına start verilib. Kreml rəsmiləri bu məsələdən Ermənistan daxilində Nikol Paşinyana qarşı çıxan müxtəlif siyasi qüvvələrin, xüsusilə də narazı elektoratın çoxaldılması məqsədilə istifadə etməyə çalışır. Eyni zamanda, Paşinyan da əks gedişlər edərək, oxşar ittihamları Rusiyanın özünə qarşı yönəltməklə məşğuldur. V.Putinin mətbuat konfransında Qarabağla bağlı sual doğuran açıqlaması da məhz buna hesablanıb.

Doğrudur, bu aspektdə "Ermənistanın Qarabağla bağlı mövqeyi dəyişərsə, Rusiya onu dəstəkləyə bilər" kimi təhlükə elementi də görünür. Fəqət, belə bir təhlükə bölgədə separatizmin ləğv edilməsinə qədər aktual sayılırdı. Amma, fikrimizcə, bundan sonra kənar aktorların Qarabağ iqtisadi rayonumuzda suverenliyimizə qarşı təhlükə yaratmaq şansları sıfıra bərabərdir. Bu baxımdan, Putinin Qarabağla bağlı sözləri Moskva–İrəvan qarşıdurmasının tərkib hissəsi kimi nəzərdən keçirilməlidir.

**Ekspert rəyi**

**Tofiq ABBASOV,**
**politoloq**



Əgər gücün yoxdursa, sən bu gün dünyada heç kimsən. Reallığı bu meyarla dəyərləndirənlərdən biri də Rusiya lideridir. Əlbəttə, bu məsələyə yanaşmada digər güclər kimi, Putinin də rolu olub, indi də var. İki gün əvvəlki məlum çıxışında da bunu nümayiş etdirdi. İrəvana xitabən dedi ki, siz Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdınız, indi bizdən nə istəyirsiniz? Mahiyyət budur. Amma biz məsələnin təkamül prosesinə diqqət yetirsək, görərik ki, bəli, bu nöqtəyə çatmaqda Azərbaycanın mətinliyi, mübarizliyi əsas rol oynayıb. Həmin dinamika, eyni zamanda üçüncü tərəflərin, böyük güclərinin riyakarlığının, təxribatyönlü siyasətinin göstəricisidir.

Münaqişənin dinc yolla həlli prosesində Rusiyanın da böyük günahları olub. Elə 2020-ci ildə qazandığımız Zəfərdən sonra Qarabağın status məslısini sonrakı mərhələyə saxlamağa çalışan həmin Putin deyildimi? Məgər onun statusla bağlı Azərbaycan Prezidentinin birmənalı açıqlamarından xəbəri yox idi? Əlbəttə, var idi. Bəs Ruben Vardanyan kartını ortaya kim çıxarmışdı? İndi isə öz mövqeyini malalamaqla məşğuldur. Görəndə ki, Ermənistan ondan imtina edir, çarəsizlikdən belə xəbərdarlıqlar göndərir.

Beynəlxalq müstəvidə, Avropada, AŞPA-da, digət platformalarda Azərbaycan Rusiyanın mövqeyini çox dəstəkləyib. Ən azı bunlar nəzərə alınmalıdır.

# "Demokratiya hamiləri"nin qərəzli dini təəssübkeşliyi

**Bəzi Qərb dövlətləri və təşkilatlarının Azərbaycana təzyiq vasitələri sırasında dini təxribat da yer alır. Qərəzli hesabatlarında hər iki istiqamət – islami və qeyri-islami həyat tərzi subyektiv təhlilə çəkilir, durumun, guya, qənaətbəxş olmadığına dair çeşidli iradlar bildirilir, "tövsiyələr" səsləndirilir. Ardınca isə bu sahədə "nöqsanları aradan qaldırmaq və keyfiyyət dəyişikliklərinə nail olmaq üçün" şirnikləndirici qrantlar yönləndirilir.**

ABŞ Dövlət Departamentinin hesabatları, Demokratiya üçün Milli Fond, Beynəlxalq İnkişaf Agentliyi (USAID), "Soros"çular, eləcə də Avropa Birliyinin hüquq-müdafiə qurumları bu sahədə fəallıqları ilə seçilir. baxış bucaqları, maliyyə şirnikləndirmələri məhz həmin qəbildəndir. Xatırladaq ki, təkcə NED ötən il üçün gizli maliyyələşmə sxemi üzrə üçüncü ölkələr və diplomatik missiyalar vasitəsilə Azərbaycan təşkilatlarına (əsasən QHT və media) 1,1 milyon ABŞ dolları ayırıb.

Əvvəlki dövrlərin təcrübəsi və müşahidələrə əsasən deyə bilərik ki, istər okeanın o tayı, istərsə də "qoca qitə" həmişə olduğu kimi, belə məsələlərdə səmimi deyil. Yəni onları insan haqları, dini dözümlülük və multikultural münasibətlər daha çox öz pozucu korporativ maraqları düşündürür. Demokratiyaya dəstək adı altında belə qurumlar Azərbaycan kimi müstəqil siyasət yeridən, azadfikirli ölkə və millətlərin nahaqdan adını hallandırıb beynəlxalq aləmdə nüfuzdan salmağa çalışırlar.

***Milli Məclisin üzvü, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov bu mövzuda açıqlamasında Azərbaycanın dünyada ən tolerant ölkələrdən biri olduğunu bildirdi:***

– Azərbaycan dövləti multikultural dəyərlərə çox böyük önəm verir. Bunu dəfələrlə Azərbaycana səfər edən ayrı-ayrı ölkələrin rəhbərləri, din xadimləri təsdiq ediblər. Bu sahədə zəngin təcrübəmiz barədə həmişə müsbət fikirlər səsləndirilib, dini durum təqdir olunub, hətta ən sivil davranış, birgəyaşayış tərzi kimi qəbul edilib. Respublikamızda bütün dinlərə bərabər şərait yaradılıb. Tarixən formalaşmış tolerantlıq modeli dünyada nadir nümunələrdən biridir. Ölkəmizdə dini müstəvidə heç bir qarşıdurma, münaqişə baş verməyib. Müsəlman dünyasının bir parçası olaraq bütün ölkələrə, dinlərə, mədəniyyətlərə eyni münasibəti bəsləyirik və bunun Azərbaycanda çox ciddi tarixi əsasları mövcuddur. Bu gün Bakının mərkəzində erməni kilsəsi var və içərisindəki 5 min nüsxə dini ədəbiyyatla qorunur. Biz onu ermənilərsayaq fars məscidi, yaxud digər kilsə şəklinə salıb saxtalaşdırmamışıq. Ermənistanın timsalında isə həmin saxtakarlıqlar özünü açıq-aşkar göstərir.

***Millət vəkili təəssüflə qeyd etdi ki, Azərbaycan müstəqillik qazandıqdan, iqtisadi tərəqqiyə imza atdıqdan, istər əmək, istərsə də özünümüdafiə cəbhəsində uğurlar əldə etdikdən sonra mütəmadi şəkildə Qərbin təzyiqləri – böhtanlar, obyektivlikdən uzaq hesabatlarla üz-üzə qalıb:***

– Ölkəmizi suçlamağa çalışırlar ki, guya, Azərbaycanda hansısa din, təriqət sıxışdırılır, kiməsə qarşı məhdudiyyət tətbiq olunur. Belə hücum kampaniyaları, xüsusilə, münasibətlər gərginləşdiyi zaman özünü daha çox büruzə verir. Biz bunu ilk dəfə deyil müşahidə edirik. Əvvəllər də dəfələrlə şahidi olmuşuq. Belə üzdəniraq qurumlar Qərb ölkələrinin təzyiq alətləridir. Hansı ölkənin müstəqil siyasəti onlara sərf eləmirsə, onunla bağlı belə hesabatlar hazırlayırlar. Təəssüf ki, erməni işğalçıları üzərində tarixi qələbəmizdən sonra bizə qarşı qərəzli addımlar çoxalıb, davamlı olaraq əsassız fikirlər səsləndirilir. Bədnam erməni diasporunun təsirində olan müxtəlif Qərb dövlətləri, beynəlxalq qurumlar haqlı savaşımızda qazandığımız Zəfəri həzm edə bilmədiklərindən yalan, qarayaxma kampaniyasına start veriblər. Amma qərəzli fikirlər, böhtanlar bizə yapışmır. Müxtəlif hesabatlarda adımız hallandırıla bilər, amma bütövlükdə günahlandırılmağımız, ortaya obyektiv faktlar, arqumentlər qoyulması mümkün deyil. Ona görə ki, sadəcə, Azərbaycanda həmin neqativ hallar mövcud deyil.



***Müsahibimiz milli-mənəvi dəyərlərin qorunması yönümündə dövlət siyasəti, bu çərçivədə görülən işlərdən də söhbət açdı:***

– Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu sahəyə böyük diqqət ayırırlar. Ölkədəki kilsələr, məscidlər, sineqoqlar təmir, bərpa olunur. Nəinki daxildə, biz bunu xaricdə də həyata keçiririk. İtaliyada və başqa yerlərdə katokombalara, digər xristian irsinə, mədəniyyət abidələrinə münasibətdə həyata keçirilən işlər deyilənlərə bariz nümunədir və Azərbaycan dövlətinin siyasətinin mahiyyətini ehtiva edir. Ermənilərsə işğal etdikləri ərazilərdə bizim bütün dini-mədəni abidələrimizi barbarcasına dağıdıblar. Həmin vandallıq aktları ilə bağlı bir onlardan da hesab sorsalar, yaxşı olar. O ki qaldı respublikamızın müsəlman əhalisinin, islam ardıcıllarının əqidəsi məsələsinə, bununla əlaqədar paytaxtda və bölgələrdə hər hansı problemlə rastlaşmamışıq. İnanclılar sərbəst, rahat şəkildə dini bayramları, müqəddəslərin mövlud və şəhadətlərini keçirir, məscidlərə gedib gündəlik ibadətlərini reallaşdırırlar. Hətta diqqət yetirmisinizsə, təcavüzdən qurtulub əsl sahiblərinə qovuşan rayonlarda da Dövlət Bayrağımız dalğalanandan dərhal sonra azan səsi yüksəlir.

***Qurban MƏMMƏDLİ***

# YAP seçki marafonuna start verdi

(əvvəli 1-ci səhifədə)

**Daha sonra Tahir Budaqov iclasın gündəliyi haqqında məlumat verib. Gündəliyə aşağıdakı məsələlər daxil edilib:**

– 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədinin irəli sürülməsi;

– 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planının təsdiq edilməsi;

– Azərbaycan Respublikası Prezidentliyinə namizəd irəli sürmüş Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin təyin edilməsi;

– Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının yaradılması və onun tərkibinin təsdiq edilməsi.

Gündəlik yekdilliklə təsdiq edildikdən sonra "2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədinin irəli sürülməsi" məsələsi müzakirəyə çıxarılıb.

YAP Sədrinin müavini–Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, seçkilər zamanı namizədlərin irəli sürülməsi məsələsi Seçki Məcəlləsinin 54-cü maddəsi ilə tənzimlənir. Həmin Məcəllənin 54.1-ci maddəsində qeyd edilir ki, namizədin irəli sürülməsi haqqında qərarı siyasi partiya öz Nizamnaməsinə uyğun olaraq qəbul edir: "Nəzərinizə çatdırım ki, Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də keçirilmiş VII Qurultayında partiyamızın yeni Nizamnaməsi qəbul edilib. Yeni Nizamnaməyə əsasən Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada seçkilərdə namizədlərin irəli sürülməsi İdarə Heyətinin səlahiyyətinə aid edilib".

Sonra çıxış edən YAP Sədrinin müavini, Baş nazirin müavini Əli Əhmədov bildirib ki, ölkəmizdə növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı qərarın qəbul olunmasını şərtləndirən obyektiv reallıqlar mövcuddur. Onun sözlərinə görə, 30 il ərzində torpaqlarımızın işğal altında olması, Qarabağ münaqişəsinin mövcudluğu Azərbaycanın reallığı idi: "Həmin dövrdə bütün seçkilərdə prezidentliyə namizədliyi irəli sürülən şəxslərdən xalqın başlıca istəyi Qarabağ münaqişəsinin ədalətli surətdə həll olunması və Azərbaycanın işğal altında olan torpaqlarının azad olunmasından ibarət idi. Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının azad olunması və ərazi bütövlüyümüzün təmin edilməsi, xüsusilə də cari ilin sentyabr ayında keçirilmiş antiterror tədbirləri nəticəsində problemin bütövlükdə ədalətli şəkildə həll olunması Azərbaycanın gündəliyini də köklü surətdə dəyişdirdi. İndi Azərbaycanın gündəliyi münaqişə və müharibə ilə deyil, sülh və əməkdaşlıq məsələləri ilə təyin olunur. Müvafiq olaraq Azərbaycan Prezidentinə xalq tərəfindən verilən mandatın da mahiyyəti ciddi şəkildə dəyişmiş olur. Sülh və əməkdaşlıq məsələlərinin həll olunması, o cümlədən işğaldan azad olunmuş Azərbaycan torpaqlarının bərpa edilməsi və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasının təmin edilməsi vəzifələri müəyyənləşdirilib. Beləliklə, Azərbaycanda yeni reallıq meydana gəlib və bu, ölkəmizdə növbədənkənar prezident seçkilərinin keçirilməsinin əsaslarını müəyyən edib. Hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşı, bütövlükdə Azərbaycan xalqı, o cümlədən, dünya ictimaiyyəti ölkəmizdə növbədənkənar prezident seçkilərinin təyin olunması ilə əlaqədar qərarın yeni reallıqlardan irəli gələn qaçılmaz zərurət olduğunu aydın şəkildə dərk edir və bu cür də qiymətləndirir. Prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədinin irəli sürülməsi məsələsinə gəldikdə isə, mən ilk olaraq böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün partiyanın İdarə Heyətinin genişləndirilmiş iclasında Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında yekdil qərar qəbul edilməlidir və qəbul ediləcək. Bu gün qəbul edəcəyimiz qərar təkcə Yeni Azərbaycan Partiyasının növbədənkənar prezident seçkilərində namizədinin irəli sürülməsi yox, bütün Azərbaycan xalqının iradəsinin ifadəsi olacaq. Bu mənada hesab edirəm ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyəti tarixi qərar qəbul etmək kimi şərəfli bir missiyanı uğurla həyata keçirəcək".



YAP Sədrinin müavini söyləyib ki, növbədənkənar prezident seçkilərində İlham Əliyevin namizədliyinin irəli sürülməsi onun əzəmətli xidmətlərindən irəli gələn mənəvi və halal haqqıdır: "Eyni zamanda, hesab edirəm ki, Prezident İlham Əliyevin namizədliyinin irəli sürülməsi 2020-ci ilin möhtəşəm Qələbəsindən sonra bütün Azərbaycan xalqının ona dərin hörmət, etibar və etimadının ən yüksək təzahürü kimi dərk edilməli və qiymətləndirilməlidir. Ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır. Prezident İlham Əliyev Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövlətinin daha da güclənməsinin, qüdrətlənməsinin, onun bütün dünyada şöhrətinin artmasının və qalib Azərbaycanın müəllifidir".

Müzakirələr zamanı çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov bildirib ki, bu gün Yeni Azərbaycan Partiyası öz siyasi tərcümeyi-halının ən şərəfli günlərini yaşamaqdadır: "Çünki biz Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyi yeni reallıqda Yeni Azərbaycan Partiyası Sədrinin prezidentliyə namizədliyini irəli sürürük. Düşünürəm ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin qəbul edəcəyi qərar ümumxalq partiyası kimi bütövlükdə Azərbaycan xalqının iradəsinin təcəssümüdür".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu çıxışında bildirib ki, İlham Əliyevin təkcə Azərbaycan dövləti və xalqı qarşısında deyil, bütün dünya qarşısında çox böyük xidmətləri var: "Bu kontekstdə bir məqamı ayrıca vurğulamaq lazımdır ki, BMT-nin mövcudluğu tarixində Baş Assambleyanın xüsusi toplantısı dördüncü dəfə Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilib. Bu baxımdan hesab edirəm ki, bu gün Yeni Azərbaycan Partiyasının İdarə Heyəti tarixi bir qərar verir".

Çıxış edən YAP İdarə Heyətinin üzvü Elnarə Akimova bildirib ki, Prezident İlham Əliyev təkcə 30 illik deyil, 200 illik tarixi taleyimizdə bütöv Azərbaycan anlayışını yenidən özümüzə qaytardı: "Qarşıda da bir sıra məsələlər var ki, onların da həlli məhz cənab İlham Əliyevdən asılıdır. Buna görə yenə də onun liderliyinə ehtiyacımız var".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı K.Cəfərov deyib ki, məhz ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyində Azərbaycanın bütövləşməsi də təsadüfi deyil: "Çünki istər sovet Azərbaycanı dönəmi, istər müstəqillik zamanı, istərsə də indiki tarix onu göstərir ki, Azərbaycanın rifahı həmişə Heydər Əliyev irsi ilə bağlı olub. Bu gün də əminik ki, Azərbaycan məhz Heydər Əliyev irsi ilə yeni Azərbaycandan qüdrətli Azərbaycana əmin addımlarla irəliləyəcək".

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs bütün mənalarda Azərbaycan xalqının maraqlarına əsaslanıb: "Cənab İlham Əliyev yalnız Azərbaycanın deyil, bütün bəşəriyyətin maraqlarını əsas götürərək dünyada gedən proseslərə təsir göstərmək, beynəlxalq təşkilatları məhz insan amilinə xidmət etməyə yönəltmək kimi məzmunlu siyasət həyata keçirən bir şəxsiyyət kimi dünyada tanınmaqdadır. Ona görə düşünürəm ki, bugünkü qərarımız həm də regionda sülh və əmin-amanlığa, təhlükəsizliyə, yeni nizamın insanların maraqlarına uyğun qurulmasına xidmət edəcək bir addım kimi dəyərləndirilməlidir".

YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyası və onun üzvləri Azərbaycan cəmiyyətinin bütün təbəqələrini özündə birləşdirir: "Əminəm ki, yalnız ölkə vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının gözü bu gün Vətəndədir. Çünki Azərbaycan onlar üçün istinad nöqtəsidir, bir mayakdır və Prezident İlham Əliyev də dünya azərbaycanlılarının lideridir. Ona görə də dövlət başçısı İlham Əliyevin yenidən namizədliyinin irəli sürülməsi, qeyd edildiyi kimi, tarixi zərurətdir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev xalqımızın qürurlu, şərəfli və möhtəşəm tarixi anlar yaşadığını bildirib: "Ölkəmizin qələbələr partiyası olan Yeni Azərbaycan Partiyası cənab İlham Əliyevin prezidentliyə namizədliyini irəli sürür. Ümummilli lider Heydər Əliyevin siyasi xəttini böyük inamla həyata keçirərək ölkəmizi rəhbərlik etdiyi 20 il ərzində başqa dövlətlərin yüz illərlə keçmədiyi bir uğurlu yolla aparan, Azərbaycanın tarixi qələbəsini təmin edən, ərazi bütövlüyünü və suverenliyini bərpa edən Prezident İlham Əliyev xalqımıza şərəfli anlar, möhtəşəm günlər yaşatdı, xalqın mübarizə və qəhrəmanlıq ruhunu yenidən dirçəltdi və özünə qaytardı".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin genişləndirilmiş iclası mahiyyət etibarilə tarixi əhəmiyyət daşıyır: "Çünki İdarə Heyətinin iclasında YAP-ın prezidentliyə irəli sürdüyü namizəd "Hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" vədinə hər zaman sadiq qalan, sözü imzası qədər keçərli olan, nəyi nə zaman və necə etməyi bilən bir liderdir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili çıxışında bildirib ki, hər bir dövlətin gücü həm də onun iqtisadiyyatı ilə ölçülür. Son 20 il ərzində Azərbaycan iqtisadiyyatı 4 dəfə böyüyüb. Bizim büdcə xərclərimiz təxminən 30 dəfə böyüyüb. Bu gün Azərbaycanın strateji valyuta ehtiyatları Azərbaycanı borcdan ən az asılı olan bir dövlətə çevirib ki, bütün bunların səbəbi Prezident İlham Əliyevin iqtisadi sahədə tətbiq etdiyi yeniliklərdir", – deyən T.Mirkişili əlavə edib: "Bütün bu reallıqları nəzərə alsaq, əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi Azərbaycan xalqının istəyidir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov bildirib ki, İlham Əliyevin növbəti dönəmdə prezident seçilməsi nəinki Azərbaycan üçün, o cümlədən beynəlxalq miqyasda da bir siyasi arzu və ümiddir: "Çünki Prezident İlham Əliyev beynəlxalq miqyasda özünəməxsus yeri və rolu olan bir liderdir. Mən də siyasi həmfikirlərimin mövqeyini dəstəkləyərək cənab İlham Əliyevin prezidentliyə namizədliyini dəstəkləyirəm".

YAP İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov bildirib ki, Cənubi Qafqazda əbədi sülhü yalnız və yalnız cənab Prezident bərqərar edə bilər. İkinci ən böyük missiya Türk dünyasını birləşdirməkdir, onu da cənab İlham Əliyev edəcək. Ona görə də bu böyük missiyaların həyata keçirilməsi üçün cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi tarixi zərurətdir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov çıxışında qeyd edib ki, dövlət başçısı İlham Əliyev 20 il ərzində Azərbaycan xalqı, dövləti qarşısında misilsiz xidmətləri ilə ölkəmizin, bəlkə də, bir əsrlik inkişafını təmin edib: "Bu gün Azərbaycan özünün ən parlaq günlərini yaşayır. Dövlət başçımızın da qeyd etdiyi kimi, çoxəsrlik tarixində Azərbaycan heç vaxt bu qədər güclü olmayıb".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı möhtəşəm uğurlardan bəhs edib. Onun sözlərinə görə, ötən dövrdə bütün sahələrdə olduğu kimi, idman sahəsində də böyük nailiyyətlər qazanılıb".

"Biz inanırıq ki, Prezident İlham Əliyev növbəti mərhələdə də möhtəşəm uğurlara imza atacaq", – deyə R.Əliyev bildirib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov çıxışında 2023-cü ilin Azərbaycan üçün böyük uğurlarla yadda qaldığını deyib: "Ona görə də partiyamızın sədrinin prezidentliyə namizədliyinin irəli sürülməsindən qürur duyuruq".

YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə Prezident İlham Əliyevin uzaqgörən siyasətçi və dövlət xadimi olduğunu bildirib. A.Rəhimzadə dövlətimizin başçısının təşəbbüsü ilə həyata keçirilən regional və qlobal layihələrin önəmindən bəhs edib.

Müzakirələrə yekun vuran YAP Sədrinin müavini–Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov İdarə Heyətinin üzvlərinin yekdil fikirdə olduğunu bildirib. "Bu müzakirələr bir daha göstərdi ki, Azərbaycanda Heydər Əliyev siyasətinə alternativ yoxdur. Cənab İlham Əliyevin siyasəti Azərbaycanı daha parlaq gələcəyə aparır, ölkəmizin daha güclü dövlət kimi beynəlxalq arenada öz mövqelərini möhkəmləndirməsinə zəmin yaradır. Prezident İlham Əliyev davamlı inkişafa yönəlmiş siyasəti ilə ölkəmizə bundan sonra da böyük uğurlar, yeni zəfərlər, zirvələr bəxş edəcək", – deyə YAP Sədrinin müavini vurğulayıb.

Müzakirələrin sonunda Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyevin 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərində Yeni Azərbaycan Partiyasından namizəd irəli sürülməsi haqqında yekdilliklə qərar qəbul olunub.

Sonra Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

Daha sonra iclasın gündəliyində olan digər məsələlər müzakirə olunub. İclasda 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planı təsdiq edilib.

Sonra YAP Sədrinin müavini–Mərkəzi Aparatın rəhbəri Tahir Yaqub oğlu Budaqov və YAP Sədrinin müavini Əli Cavad oğlu Əhmədov Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri, YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Safalan oğlu Tağıyev isə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilib.

İclasda 21 nəfərdən ibarət YAP Mərkəzi Seçki Qərargahının yaradılması haqqında qərar qəbul olunub.

YAP Mərkəzi Seçki Qərargahının üzvləri aşağıdakı tərkibdə təsdiq edilib:

1. Budaqov Tahir Yaqub oğlu – YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri
2. Əhmədov Əli Cavad oğlu – YAP Sədrinin müavini
3. Rəhimzadə Arif Qafar oğlu – YAP Veteranlar Şurasının sədri, İdarə Heyətinin üzvü
4. Qurbanlı Mübariz Qəhrəman oğlu – YAP İdarə Heyətinin üzvü
5. Muradova Bahar Əvəz qızı – YAP İdarə Heyətinin üzvü
6. Hüseynova Sevinc Əmirəhməd qızı – YAP Təftiş Komissiyasının sədri
7. İslamov Bəxtiyar Qabil oğlu – YAP Gənclər Birliyinin sədri
8. Tağıyev Əhliman Safalan oğlu – YAP Mərkəzi Aparat rəhbərinin müavini
9. Novruzov Siyavuş Dünyamalı oğlu – Milli Məclisin deputatı, Milli Məclisin Regional məsələlər komitəsinin sədri
10. Qələndərov Nurlan Vəli oğlu – YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri
11. Hüseynov Nazim Meyxoş oğlu – YAP Mərkəzi Aparatının Maliyyə-təsərrüfat şöbəsinin müdiri
12. Bədəlova Ramilə Alxan qızı – YAP Mərkəzi Aparatının Sənədlərlə iş və statistika şöbəsinin müdiri
13. İmaməliyev Asif Ağalar oğlu – YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə əlaqədar iş şöbəsinin müdirinin müavini
14. Gülməmmədov Rəfael Şirməmməd oğlu – YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdirinin müavini
15. Musayeva Zəkiyyə Balağa qızı – YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdirinin müavini
16. Məmmədli Hülya Gündüz qızı – YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdirinin müavini
17. Məhərrəmov Məhəmməd Yusif oğlu – YAP Həmkarlar İttifaqı Komitəsinin sədri
18. Musayev Alqış Həsən oğlu – "Yeni Azərbaycan" qəzetinin baş redaktoru
19. Quliyev Bəhruz Vaqif oğlu – "Səs" qəzetinin baş redaktoru
20. Rəhimzadə Vüqar Gəncəli oğlu – YAP Xətai rayon təşkilatının sədri, "İki sahil" qəzetinin baş redaktoru
21. Vəlibəyov Ramil Vaqif oğlu – YAP Nizami rayon təşkilatının sədri.

# Azərbaycanın COP29-a ilkin töhfəsi

## SOCAR və BP-nin metan emissiyalarını azaltmaq təşəbbüsü

**Dünən SOCAR və BP Azərbaycanın neft-qaz sektorunda metan səviyyələrinin azaldılmasına yönəlmiş yeni əməkdaşlıq təşəbbüsünü elan etmək üçün birgə toplantı keçirib.**

Qlobal "Metan Rəhbər Prinsipləri"ni (MGP) imzalamış bu iki şirkət Azərbaycanda metan emissiyalarının azaldılması səylərini irəli aparmaq məqsədilə öyrətmək və başqalarından öyrənmək, təcrübələri bölüşmək və birgə fəaliyyət üçün metan sahəsindəki öz təcrübə və biliklərini bir araya gətirərək sıx əməkdaşlıq edəcək.

Bundan iki həftə əvvəl, noyabrın 30-da isə "MGP" ölkələr səviyyəsində metan emissiyalarının azaldılmasını sürətləndirmək üçün özünün yeni Qlobal Metan Emissiyalarının Azaldılmasının Təşviqi (AGMR) təşəbbüsünü elan etmişdi. SOCAR və BP həmin təşəbbüs çərçivəsində birgə işləyərək Azərbaycanda enerji sektorunun tələblərinə cavab verən xüsusi yol xəritəsi hazırlamaq səylərinə dəstək məqsədilə əsas maraqlı tərəfləri, tərəfdaşları, tədqiqat institutlarını və hökumət rəhbərliyini bir araya gətirəcək.

Mərasimdə SOCAR-la BP arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb. Xatırladaq ki, bu sənəd çərçivəsində şirkətlər metan səviyyələrinin azaldılması sahəsində bilik və bacarıqların inkişafı, emissiyaların ölçülməsi, hesabatlılıq, yoxlama, texnologiyalar və texniki təcrübənin artırılması yönümündə birgə işləyəcək.

Tədbirdə çıxış edən SOCAR-ın vitse-prezidenti Əfqan İsayev qeyd edib ki, "SOCAR və BP-nin uzunmüddətli



tərəfdaşlığı qlobal miqyasda davamlı, sərfəli və təhlükəsiz enerji təmin edilməsində əlamətdardır. O bildirib ki, bu memorandumun imzalanması iki şirkət arasında qarşılıqlı əlaqələri daha da gücləndirmək öhdəliyini bir daha təsdiqləyir. Bu əməkdaşlığın metan qazının azaldılması və iqlimin qorunmasına əhəmiyyətli töhfələr verəcəyini vurğulayan Ə.İsayev deyib ki, SOCAR və BP birlikdə metan idarəetmə texnologiyaları üzrə təcrübə və fikirləri bölüşəcək, birgə texnologiya sınaqları və kampaniyaları üçün imkanları müəyyən edəcək və metan emissiyalarının azaldılması ilə bağlı məlumatlılığın artırılmasına imkan yaradacaq.

Azərbaycanda metan emissiyalarının əhəmiyyətli dərəcədə azaldılmasına yönəlmiş və bu sahədə səyləri birləşdirməyə imkan verəcək bu mühüm sənədi imzalamaqdan məmnun olduğunu bildirən BP-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib ki, sənəd iki şirkətin bu istiqamətdə sıx əməkdaşlıq etmək niyyətini əks etdirir: "İnanırıq ki, birlikdə sənayenin, cəmiyyətin və hökumətin metan emissiyalarının azaldılması səylərinə daha güclü dəstək verə bilərik. Azərbaycanın uzunmüddətli və etibarlı tərəfdaşı kimi ölkədə metan sahəsinə əhəmiyyətli dəyişikliklər gətirmək üçün SOCAR-la sıx işləməyə davam edəcəyik".

**XQ**

# Vaşinqton raundu üçün “sürpriz gündəm”

## yaxud Azərbaycana qarşı növbəti məkr

**(əvvəli 1-ci səhifədə)**

A.Mirzoyan sərhəddən qoşunları çəkmək məntiqini etimadın möhkəmlənməsinə töhfə kimi əsaslandırıb. Halbuki, etimadı möhkəmləndirmək üçün başqa məsələlər var. Məsələn, A.Mirzoyan və digər erməni rəsmiləri müxtəlif beynəlxalq platformalarda, eləcə də xarici qonaqların qarşısında Qarabağ ermənilərinə qarşı etnik təmizləmə ritorikasını kənara qoymalıdırlar, amma bunu nəinki etmirlər, əksinə, hər ötən gün durumu daha da dramatikləşdirmək yolunu tuturlar.



Konkret olaraq, qoşunları geri çəkmək təklifinə gəlincə, bu yersiz məsələni gündəmə gətirən Mirzoyan ölkəsinin sülh tərəfdarı olduğunu göstərmək niyyətindədir. Guya, Azərbaycan qoşunlarını geri çəksə, Ermənistan çəkəcəkmi? Əlbəttə, yox! Erməni XİN rəhbəri, əslində, ölkəmizin hərbçilərinin “işğal etdikləri” ərazilərdən uzaqlaşması məntiqinə köklənməkdədir. Öz aləmində, diplomatik davranır, Taleyranlıq (Napoleon Fransası dövründə xarici işlər naziri. Dünya diplomatiyasının patriarxı sayılır. Ən böyük xidməti Rusiya ilə savaşda məğlubiyyətə uğramış Fransanın müharibədən itkisiz çıxmasına nail olmasıdır – red.) fikrinə düşür. Hesab edir ki, Azərbaycan hərbçilərinin qan bahasına aldıqları torpaqları güllə atmadan geri qaytaracaq. Buna görə də C.Bayramovun cavabı tam yerindədir.

Digər yandan, Cənubi Qafqazda diplomatiyaya məkr qatmağın ən bariz obrazına çevrilmiş Mirzoyanın səsləndirdiyi təklif də məkrli niyyətə hesablanıb. Niyyət isə bəllidir. Görünür, Ermənistan rəhbərliyi XİN başçılarının gələn ilin yanvarında Vaşinqtonda keçirilməsi nəzərdə tutulan görüşü üçün indidən dividend toplamağa girişib. İrəvan Bakını Qərb platformasında, bir növ, aqressiv tərəfə çevirmək istəyir ki, ölkəmizə qarşı təzyiqlər olsun. Ona görə, kifayət qədər, həssas məqama toxunur. Silah, güc tətbiqi və sair bu sayaq məsələlərdən uzaqlıq görüntüsü formalaşdırır. Azərbaycan tərəfi məntiqsiz təklifə müsbət reaksiya verməyəndə isə Paşinyançı politoloq və siyasi ekspert sürüsü sərsəmləməyə başlayırlar. Təxminən belə: biz demişdik ki, Azərbaycan işğalçıdır. Sübut qoşunları geri çəkmək istəməmələridir. Bir sözlə, tipik erməni həyasızlığı...

***

Bəli, hazırda Ermənistanın iqtidara yaxın siyasi çevrələri Azərbaycanın Ermənistanın suveren ərazilərinə qəsb həyata keçirdiyinə dair çərənləmələrə start veriblər. Beləliklə, diqqəti əsl reallıqlardan uzaqlaşdırmaq yolu tutulur. Təsəvvür edin, belə bir son dərəcə həyasız fikir də qabardılır ki, guya, Ermənistan Azərbaycan torpaqlarını nə ötən əsrin 90-cı illərində, nə də indi işğal edib. Sən demə, 90-cı illərdəki müharibə Qarabağ–Azərbaycan müharibəsi imiş. Həqiqətən də dəhşətli durum, erməni siyasi təfəkkür tərzi üçün son dərəcə cılız məntiq var. Belə parabeyinlərin qarşısında nə deyəsən, nə danışasan? Görünür, ancaq zor tətbiqi lazımdır. Elə bil, “Qarabağ Ermənistandır nöqtə” bəyanatını verən Ermənistanın baş naziri Nikol Paşinyan olmayıbmış... Əslində, bəlkə də təəccüblənməyə dəyməz. Axı, ölkəmizin sentyabrın 19-da keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən əvvəl Qarabağın seçilmiş hakimiyyətinin olduğunu deyən də məhz Paşinyan idi. Yəni, Nikol Qarabağ separatçılarını ayrıca tərəf kimi göstərmişdi.

***

Əlqərəz, Ermənistanın qoşunların geri çəkilməsi təklifinin Azərbaycan tərəfindən məqbul qiymətləndirilməməsi fonunda İrəvanın siyasi dairələrində Prezident İlham Əliyevin müxtəlif çıxışlarda səsləndirdiyi fikirlər qabardılır. Dövlətimizin başçısı Ermənistanla şərti sərhədlərdəki strateji yüksəkliklərin, əlverişli nöqtələrin Azərbaycan Ordusunun nəzarətində olduğunu bildirmiş və bunu təhlükəsizliyin təminatı baxımından əsaslandırmışdı. Qeyd edək ki, buna qədər Ermənistan hərbçiləri həmin yüksəkliklərdən və strateji nöqtələrdən istifadə edərək, təxribatlar törədirdilər. Təxribatların qarşısı alınmalı idi və alındı da. Yəni, niyyət heç də işğalçılıq deyildi. Üstəlik, C.Bayramovun da bildirdiyi kimi, Azərbaycan–Ermənistan sərhədləri müəyyənləşməyib. Deməli, heç kəs deyə bilməz ki, ordumuzun mövqe tutduğu nöqtələr Ermənistana məxsusdur.

***

Onu da bildirək ki, A.Mirzoyan qoşunların sərhəddən geri çəkilməsi məsələsini heç də təsadüfən qabartmır. Bu, vaxtilə Qərb vasitəçiləri, konkret olaraq, ABŞ tərəfindən irəli sürülmüşdü. Bu ilin mayında Birləşmiş Ştatlar hər iki tərəfə qoşunları geri çəkməklə bağlı çağırış etmişdi. Ancaq ondan sonra məhz Ermənistan ilk dəfə olaraq sərhədə qoşun hissələri yığmağa başlamışdı. Belə nəticəyə gəlmək mümkündür ki, İrəvan hazırda mövzunu gündəmə gətirməklə, Birləşmiş Ştatların qaldırdığı məsələnin üzərinə fokuslanır və dəxli olmadan onu danışıqlar müstəvisinə çıxarmaq yolu tutur.

İrəvan göstərmək istəyir ki, Bakı Vaşinqtonun bildirdiklərinə məhəl qoymur. Hesab edir ki, durum ölkəmizi danışıqlar masasında zəif salacaq. Göründüyü kimi, ortada düşünülmüş son dərəcə incə məkr var. Bu məkrin Azərbaycanı Qərb dünyasına işğalçı kimi təqdim etməyə hesablandığını isə artıq bildirdik.

Bəli, hazırda Paşinyana yaxın erməni başbilənlər C.Bayramovun məlum açıqlamasını Azərbaycanın sərhədlərin demarkasiyası işləri zamanı hərbi təzyiq göstərmək, müharibə təhlükəsi yaratmaq istəyi kimi təqdim edirlər. Əlbəttə, belə gedişlərdə başlıca məqsəd həm də Ermənistanın sərhədlərin demarkasiyası və delimitasiyası işlərində 1974–1979-cu illərin xəritələrinin əsas götürülməsi məqsədinin gerçəkləşməsinə yönəlib. İrəvanda yaxşı bilirlər ki, həmin vaxta qədərki xəritələrdə SSRİ-yə daxil olduqdan sonra Azərbaycandan qeyri-qanuni yolla qoparılmış hissələr, o cümlədən, ölkəmizin digər ərazilərini Naxçıvanla birləşdirən 42 kilometrlik quru yolu əksini tapmayıb.

***

A.Mirzoyanın qəbuledilməz məsələni ortaya atmasındakı daha bir məqsədi isə ümumən Azərbaycanla Ermənistan arasında sərhəd gərginliyinin mövcudluğunu vurğulamaqdır. Hesab edirik ki, bu da düşünülmüş kifayət qədər incə məqamdır və yenə də Qərb vasitəçiliyinə üstünlük qazandırmağa hesablanıb. O anlamda ki, Azərbaycan–Ermənistan şərti sərhədinin Hayastan tərəfində Avropa İttifaqının müşahidəçiləri “lövbər salıblar”. Bu günlərdə müşahidə missiyasının tərkibinin artırılmasına dair qərar da qəbul edildi. O da məlumdur ki, Aİ sözügedən missiya təmsilçilərinin sayını gələcəkdə daha da artırmaqda maraqlıdır.

Sonda onu da bildirək ki, ümumən, Qərbin missiya məntiqi Rusiyanın Cənubi Qafqazdan sıxışdırılmasına hesablanıb. Ona görə də Ermənistan hazırda canfəşanlıq edir. Qəsdən elə durum yaradır ki, müşahidəçilərin sərhəddə mövcudluğunun qaçılmaz zərurət olduğunu əsaslandırsın. Əlbəttə, bu fonda Azərbaycanın sülhə razı olmadığının qabardılmasını da görürük. Bu nəticəyə gəlirik ki, Ermənistan regionda sülh istəmir.

***Ə.RÜSTƏMOV***
***XQ***

**Rusiya Prezidenti Vladimir Putinin ona ünvanlanan sualları cavablandırarkən, dilə gətirdiyi fikirlər Ermənistanda ciddi reaksiya doğurub. Məsələ burasındadır ki, hay başbilənlər Kreml rəhbərinin sözlərini Moskvanın İrəvana növbəti demarşı kimi qiymətləndiriblər.**

Əvvəla, deyək ki, Qərbpərəst erməni iqtidarına Rusiya tərəfindən ünvanlanan əks baxışlar, necə deyərlər, hava-su kimi lazımdır. O mənada ki, baş nazir Nikol Paşinyan administrasiyası bu cür məqamları qabardır və özünü dünya ictimaiyyətinə Cənubi Qafqazdakı yeganə anti-Rusiya qalası kimi təqdim edir. Şübhəsiz, təqdimat özlüyündə böyük mənəvi-siyasi dividenddir.

Belə təəssürat da yaranır ki, Rusiya olmasaydı da, Ermənistan hökuməti onu bir antipod kimi uydurmağa ehtiyac hiss edəcəkdi. O zaman diqqət yetirək və görək, cənab Putin nə deyib ki, ermənilərin “xətrinə dəyib”. İlk baxışdan, Rusiya Prezidentinin hansısa fövqəladə fikir səsləndirdiyini söyləyə bilmərik. O, Qarabağla bağlı son zamanlar bildirdiklərini yenə təkrarlayıb. Deyib ki, bölgəni Azərbaycana erməni iqtidarının özü verdi. Hakimiyyətyönümlü erməni ictimai rəyində qəzəb doğurmuş başlıca məsələ isə Kreml rəhbərinin strateji müttəfiqi olan Ermənistanın Rusiya inteqrasiya təşkilatlarını boykot etməsi reallığına verdiyi izahdır. Putinin sözlərinə görə, MDB-də, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında və Avrasiya İqtisadi İttifaqında üzvlükdən imtina rəsmi İrəvanın marağından uzaqdır. Yəni, Paşinyançı politoloq, siyasi ekspert və jurnalist yığını məhz bu deyimdə Ermənistan üçün təhlükə axtarmağa girişib. Təxminən belə: Putin kimdir ki, İrəvan üçün nəyin maraqlı, nəyin maraqsız olduğunu müəyyənləşdirsin?! Müəyyənləşdirməyə çalışırsa, deməli, ölkənin daxili işinə qarışır. Durumu, hətta, subliminal şantaj mesajı kimi də dəyərləndirənlər var. Digər yandan, Rusiya liderinin vurğuladığı başqa məqamlara reaksiyalar da səngimək bilmir.



# Ermənistanda Putinə qəzəb və İrəvanın anti-Rusiya motivləri

## Kreml rəhbərinin dediklərinə sözardı




Bəli, V.Putin yuxarıdaki fikirlərini dilə gətirərkən, strateji seçimin yekunda Ermənistan hakimiyyətindən asılılığını diqqətə çatdırmağı yaddan çıxarmayıb. Maraqlıdır ki, bu fikir də İrəvanda şantaj kimi dəyərləndirilib. Belə görünür ki, Rusiyadan Ermənistana “can” deyə xitab olunsa da, Paşinyançılar vəziyyəti “çor” olaraq qiymətləndirəcəklər. Bəlkə də haqlıdırlar. Çünki Nikoldan əvvəlki qatı ruspərəst, ayaqyoluna gedəndə də Moskvadan icazə alan Koçaryan-Sarkisyan xuntası xalqa o qədər zülm edib ki, Rusiya Ermənistan üçün, bir növ, psixoloji sarsıntıya çevrilib. Paşinyan iqtidarı isə durumdan məharətlə yararlanır.

V.Putinin fikirlərindən hasil olan qənaət budur ki, hazırda Ermənistandakı ab-hava, ümumən, erməni prosesləri ilə əlaqədardır və məsələni Rusiyanın hakim rol oynadığı inteqrasiya birliklərinə münasibətdəki münaqişə kimi qiymətləndirmək olmaz. Yəni, bu, o deməkdir ki, İrəvanın Moskva ilə bağlı problemləri varsa, onları Kremlin hakim rol oynadığı təşkilatların platformasında dəyərləndirmək, həmin qurumlara münasibətdə sayğısızlıq, yumşaq desək, yaxşı yanaşma deyil.

***

“Ermənistanda Qarabağla bağlı mürəkkəb proseslər gedir. Biz bütün bunları başa düşürük. Amma biz Qarabağdan əl çəkmədik. Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyan Ermənistan oldu”, – deyən V.Putin nə qədər vurğunu Paşinyan hakimiyyətinə qınaq gətirmək niyyətinə kökləyib Moskvanı təmizə çıxarmaq istəsə də, aydın hiss edilməkdədir ki, Ermənistan iqtidarının Qarabağ davranışları Kremldə qəzəb doğurub. Elə erməni ictimai rəyindəki hiddət də bununla bağlıdır.

Putin Rusiyasız Qarabağ avantürasının mümkünsüzlüyünü gündəmə gətirdikcə, hiddət daha da pik həddə çatır. Paşinyan iqtidarı yaxşı anlayır ki, Kreml rəhbərinin hər belə çıxışı, loru dildə desək, onun qaysaq bağlamaqda olan yaranı qanatması, Ermənistandakı kütləleri Qarabağ məsələsinə kökləyir. Daha doğrusu, bölgəni Azərbaycana Paşinyan iqtidarının verməsi ritorikasına. Əlbəttə, Putinin fikrini Rusiyanın Qarabağı Azərbaycandan alıb Ermənistana verə biləcəyi formasında qəbul edən başıpozuqlar da var. Paşinyançılar isə erməni identikliyi kimi qiymətləndirilən məsələdəki rüsvayçılığın daim üzlərinə vurulmasından narahatdırlar. Hər halda, nəinki Rusiya lideri, rəsmi Moskvanın digər təmsilçiləri də bu məsələdə aktivdirlər. Aktivlik Ermənistan hakimiyyəti üçün təhlükə formalaşdırır.

***

Diqqət yetirək, V.Putin bildirir ki, Ermənistan iqtidarı Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımazdan əvvəl bu barədə Rusiyaya məlumat belə verməyib. Əlbəttə, obyektiv sual yaranır ki, məlumat nə üçün verilməli imiş? Ona görə ki, Rusiya böyük dövlətdir? O səbəbdən ki, Moskva Cənubi Qafqazda söz sahibidir?

Əlbəttə, Putinin bu deyimində bir amiranəlik var. Ancaq mövzunu sadə şəkildə də izah etmək mümkündür. Bir halda ki, Ermənistan hakimiyyəti Qarabağ uğursuzluğu üçün Moskvanı günahlandırmaq yolu tutur, o zaman Kreml rəhbəri nə deməlidir? Nəhayət, rus əsgəri 44 günlük müharibədə Azərbaycan naminə döyüşməyib. …Ruslar 1991–1993-cü illərdə Ermənistanın tərəfində vuruşublar və hayların Qarabağa yiyələnməsində müstəsna pay sahibinə çevriliblər. Həmçinin, bölgənin otuz ilə yaxın İrəvanın nəzarətində saxlanılmasına da yaxından kömək göstəriblər.

Ancaq 2018-ci ildə Ermənistanın siyasi sistemində qəza baş verdi və hakimiyyətə Qərbpərəst Nikol Paşinyan gəldi. Gələn kimi üzünü Moskvadan çevirmək yolu tutdu, Koçaryan və Sarkisyanın ənənəvi xəttindən uzaqlaşaraq, Kremlə təzimdən uzaq durdu. Axı, Ermənistan dövlətçiliyi mahiyyətcə təzim üzərində qurulmuş bir qurumdur. Onun təbiətinə müstəqillik yaddır. Hazırda ölkədə baş verənlər “qeyrətsizin qeyrətə gəlməsi” səhnəsindən başqa bir şey deyil. Hər halda, Rusiyadan mənzərə belə görünür və o da görünür ki, Moskvanın həzm edə bilmədiyi də elə həmin mənzərədir.

Əlqərəz, detallara varmaq istəməzdik, 2018-ci ildən sonra yaşananlar hər kəsin yaxşı xatirindədir. Elə 2020-ci ilin 44 günlük müharibəsindən sonrakı proseslər də. Yəni, Rusiya Prezidentinin baş nazir Paşinyanın 2022-ci ilin oktyabrında Praqada və 2023-cü ilin mayında Brüsseldə Qarabağı Azərbaycanın ərazisi kimi tanıyarkən xəbərsiz olduğunu bildirməsi mümkündür. Putin deyir ki, Qarabağı verəndə mənə heç nə deməmişdinizsə, indi nə üçün üstümə gəlirsiniz? Məsələnin sadə izahı məhz belədir.

***

Bəli, Putinin Qarabağ müstəvisində üzərinə çox gəlinməkdədir. Əvvəl bunu Ermənistan hakimiyyətinin təmsilçiləri edirdilərsə və ölkə parlametinin sədri Alen Simonyanın şəxsində “Rusiya 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla Qarabağı Azərbaycana verdi” şəklində fikir bildirirdilərsə, Moskvanın Praqa və Brüssel arqumenti sanki, qurbağa gölünə daş atıb. Amma səssizliyin özü də Kremlə sərfəli deyil. Sərfəli deyil ki, artıq Qarabağ məsələsini qaldıranlar Rusiyadakı erməni kəsim, ermənipərəstlər, o cümlədən, Paşinyan iqtidarından qatı narazılardır. Məhz onların sayəsində Putin, demək olar, hər çıxışında Qarabağ mövzusuna toxunur. Yəni, sual verirlər, o da cavablandırır. Əlbəttə, cavabların hamısı erməni iqtidarına iti ox kimi batmaqdadır. Nikolun tərəfdarları olan siyasi ekspert və politoloqlar məhz buna görə Rusiya üzərinə köklənməkdədirlər. Belə bir köklənmənin İrəvana Qərbin rəğbətini daha da artırmaq baxımından lazımlılığı isə danılmaz faktdır və mövzuya yazımızda artıq toxunduq…

***

Bəli, Ermənistan iqtidarının qeyri-rəsmi sözçüləri Putinin, ümumən, Rusiya rəsmilərinin bildirdiklərinin qarşılığında Paşinyan və komandasının Qarabağdakı rus sülhməramlılarının öz üzərlərinə düşən funksiyanı yerinə yetirmədiyi məntiqini təkrarlamağa girişiblər. Onlar müxtəlif detalları açıqlayacaq qədər qeyri-etik davranmaqdan çəkinmirlər. Məsələn, deyirlər ki, guya, sülhməramlılar özlərinin məsuliyyət zonasındakı ərazilərdə erməni hərbçilərin oğurlanıb Azərbaycana təhvil verilməsində iştirak ediblər. Hər halda, fikrin absurdluğunu isbatlamağa ehtiyac yoxdur.

Əlbətə, Ermənistanda Rusiyaya ünvanlanmış bu sayaq ittihamlar hazırda çoxalıb. Heç şübhəsiz, yaxın müddətdə daha yeni anti-Rusiya “arqumentləri” tapılıb dövriyyəyə buraxılacaq. Haqqında söz açdığımız politoloqlar mövcud xüsusda “ciddi çalışmaqdadırlar”. Ancaq onların fikirlərinə bir başlıca ziddiyyət hakimdir. Ziddiyyət isə bundan ibarətdir ki, Rusiyanın “Azərbaycana dəstəyi” fonunda, Bakını ittiham edən Paşinyan tərəfdarları sonra, belə demək mümkünsə, Cənubi Qafqaz beynəlmiləlçiliyinə keçid alırlar. Onlar bildirirlər ki, Rusiya onilliklər ərzində ermənilərin və azərbaycanlıların qanı bahasına İrəvan və Bakı üzərində öz təsirini saxlayıb, ermənilərlə azərbaycanlılar bunu dərk etməli və barışmalıdırlar. Region xalqları Rusiyanın Cənubi Qafqazdakı imperiyapərəst məqsədlərini öz qanları ilə qidalandırmaqdan imtina etməyə və sair bu sayaq populist sentimentalizmə baş vurulur.

***

Sonda diqqətə çatdırdıqlarımız fonunda, tarixin qəribə ironiyasının olduğunu söyləyə bilərik. Neçə onillik yox, neçə yüzillikdir ki, imperialist maraqların alətinə çevrilmiş erməni təfəkkür tərzinin müasir daşıyıcıları indi, guya, fərqli mövqe tutduqlarını bildirir və istəyirlər ki, biz buna inanaq. Ən təzadlı məqam isə ondadır ki, inanmaq üçün heç bir əsas yoxdur.

Digər tərəfdən, səmimiyyətdən tam uzaq durum var. Sual yaranır: İndidəmi Rusiya öyrədib erməniləri üstümüzə salıb? Xeyr! Bəs, niyə barışığa gəlməyib çeşidli manipulyasiyalara baş vururlar? Çünki zatları xarabdır. Bəli, Rusiya haylara diktə etməyib ki, gedin, konstutusiyanızda qonşulara ərazi iddiası barədə yazın və düşüncənizi cəfəngiyyata varmaqla əsaslandırın. Sərsəmlik özlərinin yarımçıq təfəkkürlərinin çiy məhsuludur.

Erməni başbilənlər fərqində də deyillər ki, hazırda gerçəkləşdirdikləri, o cümlədən, tutduqları mövqe sadəcə bir imperialist marağın icraçısı olmaqdan çıxıb, digərinin icraçısına çevrilməkdən başqa bir şey deyil. Həqiqətən, ortada erməni ictimai rəyi adına son dərəcə miskin, aciz və cılız mənzərə var. Bu da bir reallıqdır ki, mövcud durum anti-Rusiya ritorikası müstəvisində daha çirkin və iyrənc xarakter almaqdadır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Orta Dəhliz Türk dünyasının ortaq yoludur

## Bu marşrut Avrasiya ölkələrini də bir-birinə qovuşdurur

(əvvəli 1-ci səhifədə)

Ölkə rəhbəri hazırda dövlət büdcəsində daha çox vəsait toplanılmasının prioritet istiqamətlərdən biri olduğunu və məqsədə çatmaq üçün genişmiqyaslı iqtisadi islahatlar aparıldığını, gömrük və vergi inzibatçılığı sahəsində olduqca




uğurlu təşəbbüslər gerçəkləşdirildiyini, dövlət şirkətlərində korporativ idarəçilik sisteminin qurulduğunu diqqətə çatdırıb.

Dövlət başçısının sözlərinə görə, Azərbaycan bağlantı layihələrindən böyük həcmdə mənfəət əldə olunacağına ümid edir. Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərindən Azərbaycan ərazisindən keçən, müxtəlif istiqamətlərə daşınan 10 milyonlarla ton əlavə yükün respublika büdcəsinə böyük həcmdə gəlir gətirəcəyi proqnozlaşdırılır. Bu, həm də məşğulluq, əlavə vəsait və Azərbaycanın geosiyasi əhəmiyyəti deməkdir.

Yeri gəlmişkən, bu məqamda Orta Dəhlizin də (Trans–Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) respublikamız üçün mühüm önəm daşıdığını qeyd etmək istərdik. Xatırladaq ki, Rusiya–Ukrayna müharibəsi və Qərbin Moskvaya qarşı sanksiyaları Rusiyanın tranzit ölkə kimi, xüsusən də Avropa İttifaqı ilə Çin arasında quru əsaslı ticarət əlaqələrində səmərəliliyini məhdudlaşdırıb. Bu kontekstdə Orta Dəhliz dəmir yolu ticarəti üçün potensial alternativ marşrut kimi Çin, Aİ və daha geniş regionda şirkətlər və hökumətlərin diqqətini çəkməyi bacarıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının sözlərinə görə, Orta Dəhlizi bir dəyər zənciri də adlandırmaq olar. Amma daha geniş anlamda, bu dəhlizin üstünlükləri və əhatə coğrafiyası Türk Dövlətləri Təşkilatının (TDT) əsas əlaqələndiricisi kimi çıxış etməyə zəmin yaradır. Dəhlizin trayektoriyası da onun 1 trilyon ABŞ dollarından çox ümumi daxil məhsula (ÜDM) malik Türk dövlətlərini birləşdirən bir layihə olduğunu deməyə tam əsas verir.

Beləliklə, Çin–Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçərək Asiyanı Avropa ilə birləşdirən marşrutdur. Regionda yaranmış münbit geosiyasi şəraitdə, Avropa və Asiya arasında ən qısa və rahat marşrut olan bu dəhlizə maraq getdikcə artır. Şimal dəhlizinə əsas alternativ olan Orta Dəhlizlə Çindən Avropaya 7 min kilometr məsafə qət etməklə daşınmalar mümkündür. Avropa ölkələri ilə Çin arasında illik ticarət dövriyyəsi 600 milyard dolların üzərindədir.

2020-ci ildən etibarən Orta Dəhliz ilə ayda iki dəfə olmaqla Türkiyədən Çinə müntəzəm olaraq konteynerlərin daşınması reallaşdırılıb. Təkcə 2021-ci ildə Çin–Avropa arasında, hər iki istiqamət üzrə ümumilikdə, dəmir yolu ilə 84,9 milyard dollarlıq yük daşınması həyata keçirilib. 2020–2021-ci illərdə bu dəhlizdə nəql edilmiş yükün ümumi həcmi 350-530 min ton arası olsa da, təkcə 2022-ci ildə bu rəqəm 3,2 milyon tona qədər artıb. Orta Dəhliz Çindən gələn yüklərin Qazaxıstandan keçərək Xəzər dənizinə, Azərbaycana və oradan da Gürcüstan və Türkiyə üzərindən Avropadakı son təyinat ölkələrinə çatmasına imkan yaradır. Bu baxımdan dəhlizin və bu infrastrukturun bir hissəsi kimi Bakı-Tbilisi-Qars dəmir yolu böyük əhəmiyyətə malikdir.

Azərbaycan Orta Dəhlizin potensial imkanlarını yüksək dəyərləndirərək infrastrukturun inkişafına mühüm töhfələr verməyi planlaşdırıb. Bu, "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün Fəaliyyət Planı"nda öz ifadəsini tapıb. Artıq Dövlət Gömrük Komitəsi sözügedən dəhliz boyunca tranzit daşınmaların rəqəmsallaşdırılması və ümumi tranzit portalının yaradılması istiqamətində tədbirlərin həyata keçirilməsinə başlayıb. Bütün bunlar isə yaxın gələcəkdə dəhlizin potensialından daha səmərəli istifadəyə, daşınma həcminin artmasına, tranzit daşınmalarından daha çox gəlirin əldə olunmasına zəmin yaradıb.

Azərbaycanda beynəlxalq dəhlizlərin iş səmərəliliyini artırmaq məqsədilə indiyədək genişmiqyaslı layihələr reallaşdırılıb. Məsələn, infrastruktur təminatını yüksəltmək üçün son 20 ildə 19 min kilometr avtomobil, 1400 kilometr dəmir yolu tikilib və yaxud əsaslı təmir edilib. Bundan başqa 52 gəmi ilə Xəzər dənizində ən böyük mülki yük, 18 təyyarə ilə regionda ən böyük mülki hava yük donanması yaradılıb, 8 beynəlxalq hava limanı istifadəyə verilib. Azərbaycanın regionda ən böyük gəmiqayırma zavoduna malik olması və Bakı gəmiqayırma zavodunun bütün növ gəmiləri istehsal edə bilməsi ilə respublikamızın transit imkanları genişlənib. Ələtdə yaradılan terminalda isə böyük həcmdə yüklərin daşınması, qəbulu və yola salınması üçün davamlı işlər aparılıb və gələcəkdə bu infrastrukturun daha da güclənməsi məqsədilə yeni layihələrin reallaşdırılması nəzərdə tutulub.

Orta Dəhlizin davamlı inkişafı nəticəsində cari ilin yanvar-avqust aylarında bu marşrutla Çindən Avropaya daşınan yüklərin həcmi ötən ilin eyni dövrünə nisbətən 84 faiz çox olub. Bu göstəricinin əldə olunmasında Azərbaycan və Gürcüstanın müvafiq nazirlikləri ilə əlaqələndirilmiş iş mühüm rol oynayıb. Ötən il maneələrin aradan qaldırılmasına yönəlmiş müvafiq Yol Xəritəsi imzalanıb. Ümumiyyətlə, Orta Dəhlizin inkişafı və Qazaxıstanda multimodal nəqliyyatın genişləndirilməsi üçün bir sıra infrastruktur layihələri həyata keçirilib. Qazaxıstanın Dostıq-Moyintı dəmir yolu mənzilində 2-ci yolun tikintisinə başlanılıb ki, bu da yükdaşıma qabiliyyətini və daşıma sürətini 5 dəfə artıracaq. Darbaza-Maktaral dairəvi dəmir yolu xəttinin tikintisinə də başlanılır. Baxtı-Ayagöz istiqamətində də yeni layihə var. Yəni Çindən yüklərin qəbulu üçün 3-cü məntəqənin açılması çox vacibdir. Bu baxımdan ən aktual obyekt Baxtı-Taçen istiqamətində tikilən, 20 milyon ton yük dövriyyəsi olacaq yeni dəmir yolu stansiyasıdır.

Bütün bunlara baxmayaraq, Dünya Bankı ekspertlərinin hazırladıqları hesabatda Orta Dəhlizlə daşımaları daha da artırmaq üçün bu infrastrukturdan istifadə etməyə maraqlı olan ölkələrin üzərinə bir sıra vəzifələr düşdüyü bildirilir. Həmin hesabatda dəhlizin inkişafını zəruri edən koordinasiya və vahid idarəçiliyin yaradılması, müxtəlif ölkələrin dəmir yolu nəqliyyatı operatorlarının qarşılıqlı əlaqədə olduğu sərhəd-keçid məntəqələrində gecikmələrin aradan qaldırılması, tərəflərin istifadə etdiyi müasir informasiya texnologiyaları həllərinin vahidliyinin və inteqrasiyasının qurulması kimi məsələlərin həllinin zəruriliyi vurğulanır.

***Vaqif BAYRAMOV***
***XQ***

# Dəmir yolu ilə sərnişin daşımaları 40 faiz artıb

**2023-cü ilin yanvar–noyabr aylarında Azərbaycanda dəmir yolu nəqliyyatı ilə 16,7 milyon ton yük və 6 milyon 342,3 min sərnişin daşınıb.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2022-ci ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında 1,8 faiz azalma baş versə də, sərnişin daşınmasında 39,9 faiz artım müşahidə olunub. Məlumata görə, hesabat dövründə orta hesabla sutkada 366 vaqon yüklənib, 424 vaqon isə boşaldılıb. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 18,5 min ton, Qərb istiqaməti üzrə 2,7 min ton, Cənub istiqaməti üzrə isə 0,6 min ton yüklənmə işi yerinə yetirilib.




# İqtisadiyyatda sabit artım davam edəcək

**Beynəlxalq Valyuta Fondunun (BVF) nümayəndə heyəti bu yaxınlarda 2023-cü il IV Maddə üzrə məsləhətləşmələr çərçivəsində Azərbaycanın iqtisadi mənzərəsinin hərtərəfli icmalını təqdim edib.**



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İqtisadi təhlil şöbəsinin müdiri Günay Quliyeva bu hesabatda Azərbaycan iqtisadiyyatı ilə bağlı bir sıra nikbin proqnozların verildiyini bildirib. O, hesabata əsaslanaraq vurğulayıb ki, 2022-ci ildə qeyri-neft sektorundakı 9,1 faizlik artım, xüsusən də intensiv bərpa-quruculuq işləri, tikinti və nəqliyyat sektorlarındakı inkişaf real ÜDM-ni 4,6 faiz yüksəltməklə, ölkənin qlobal iqtisadiyyata uyğunlaşma qabiliyyətini və iqtisadi bazasını diversifikasiya etmək gücünü əks etdirir.

Hesabatda BVF-nin əməkdaşları 2024-cü il büdcəsində nəzərdə tutulan mülayim xərc artımına uyğun olaraq, 2024-cü ildə qeyri-neft üzrə ilkin kəsirin qeyri-neft ÜDM-nin təxminən 2 faizi qədər azaldılmasını proqnozlaşdırmaqla bərabər, ortamüddətli xərclər çərçivəsində dövlətin qarşıya qoyduğu 2028–ci ilə qədər bu kəsirin 15 faizə qədər endirilməsi hədəfinə nail olunmasını da real görürlər.

Qeyd edək ki, BVF-nin 2028-ci ilə qədər olan dövr üçün Azərbaycan iqtisadiyyatı ilə bağlı proqnozları da müsbətdir. Verilən proqnozlar onu deməyə əsas verir ki, növbəti 5 ildə də ölkə iqtisadiyyatında davamlı sabit artım davam edəcək.

# "Füzuli" SES 11 ildir ahəngdar fəaliyyət göstərir

**"Füzuli" Su Elektrik Stansiyasında istismara verildiyi gündən cari il dekabrın 1-dək 309 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.**



Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib. Qeyd olunub ki, hər biri 6,25 meqavatlıq 4 hidroaqreqatdan ibarət olan basqılı derivasiya tipli su elektrik stansiyasının ümumi qoyuluş gücü 25 meqavatdır.

Xatırladaq ki, 2012-ci il dekabrın 15-də istifadəyə verilmiş "Füzuli" Su Elektrik Stansiyasında 2022-ci il dekabrın 1-dək 295 milyon kilovatsaat elektrik enerjisi istehsal edilmişdi.

***XQ***

# Yeni texnologiyalar neft hasilatını yüksəldir



**Ölkəmizin qurudakı karbohidrogen yataqları uzun illərdir istismar olunmasına baxmayaraq, buradakı neft-qaz ehtiyatları hələ tükənməyib. Məlumat üçün bildiririk ki, ölkəmizdə neftin sənaye üsulu ilə çıxarılmasına başlandığı ötən 177 ildə quruda lazımi axtarış-geofiziki tədqiqat işləri aparılıb.**

Bunun nəticəsində çoxsaylı neft yataqları, perspektivli strukturlar aşkar edilib. Ötən illərdə yeni strukturların əksəriyyətində uğurlu geoloji kəşfiyyat işləri aparılaraq buradakı ehtiyatların işlənməyə cəlb edilməsi təmin edilib. Hazırda qurudakı yataqların 28-i SOCAR-ın "Azneft" İstehsalat Birliyinin balansındadır. Bundan əlavə, ölkənin quru ərazisində yerləşən daha 25 neft-qaz yatağı SOCAR-la yaradılmış birgə müəssisə və əməliyyat şirkətləri tərəfindən istismar olunur.

Azərbaycanın ilk özəl enerji şirkəti GL tabeliyindəki əməliyyat şirkəti "Taghiyev Operating Company" (TOC) tərəfindən istismar edilən "Buzovna-Maştağa" yatağında dörd yeni quyunun qazılması zamanı mühüm ilklərə imza atıb. Bununla da, ölkəmizdə quruda qazma əməliyyatlarının yeni standartlarını müəyyənləşdirərək istismarda olan yataqların bərpası strategiyasına keyfiyyət etibarı ilə yeni yanaşma təklif edir.

GL şirkəti Azərbaycanın quru ərazisində ilk dəfə olaraq "GeoTap" sistemindən istifadə edərək yatağın lay təzyiqi, neftlə doyumluluğu, məhsuldarlığı və neftin mobilliyi haqqında əhəmiyyətli texniki məlumatların əldə edilməsinə müvəffəq olub. Bu məlumatlar qazma və tamamlama əməliyyatları zamanı yüksək dəqiqliklə qərarların qəbul edilməsi prosesini dəstəkləməklə hər mənimsənilən quyudan ilkin olaraq planlaşdırılandan iki dəfə çox hasilata nail olunmasına gətirib çıxarıb. Qeyd olunan məlumatlar yataqda quyuların əsaslı təmiri və növbəti qazma əməliyyatları zamanı görülən işlərin uğurla tamamlanmasına töhfə verəcək.

Yeri gəlmişkən, şirkət Azərbaycanda quruda 2 min metr dərinlikdə qazma əməliyyatını ən qısa müddətdə reallaşdırmaqla da rekorda imza atıb. Belə ki, yüksək icra göstəricisi ilə qazma işləri ilk quyuda 28 günə, ikinci və üçüncü quyunun hər birində 22 günə, dördüncü quyuda isə cəmi 18 günə tamamlanıb. Bununla da, "Buzovna-Maştağa" yatağında son 30 il ərzində ilk dəfə GL-in operatorluğu ilə Qırmaki altı lay dəstinin alt laylarından neft əldə edilib.

Daha bir maraqlı məqam ondan ibarətdir ki, yatağın tarixində ilk dəfə olaraq GL qazma zamanı 180 metr yana istiqamətləndirmə ilə maili qazma texnologiyasını tətbiq etməklə yanaşı, neft əsaslı məhluldan istifadə edib və qazma prosesini çınqıllı süzgəc üsulu ilə tamamlayıb. GL şirkətinin baş icraçı direktoru Asif Zeynalovun sözlərinə görə, səriştəli idarəetmə komandası, quyuların düzgün texniki-mühəndis layihələndirilməsi, müasir texnologiyaların tətbiqi, dəqiq planlaşdırma və podratçılarla işin düzgün qurulması şirkətin üç ay əvvəl başladığı qazma layihəsinin uğurla və təhlükəsiz başa çatdırılmasına töhfə verən əsas amillərdir.

"Biz tərəfdaşlarımıza və podratçılarımıza, o cümlədən SOCAR-ın Kompleks Qazma İşləri Tresti, SOCAR AQŞ, "Halliburton", "Weatherford", "Baker Hughes" və digər şirkətlərə səmərəli əməkdaşlığa və uğurlu qazma işlərinə verdikləri töhfəyə görə təşəkkür edirik. Bu quyulardan əldə olunan nəticələr sübut edir ki, istismarda olan yataqlara düzgün yanaşma ilə onların istismar müddətini uzatmaq və hasilatı artırmaq üçün böyük potensial var", – deyə baş icraçı direktor əlavə edib.

Yeri gəlmişkən, GL International LTD ilə SOCAR arasında "Buzovna-Maştağa, Qala və Zirə neft yataqlarının daxil olduğu blokun bərpası və işlənməsi ilə əlaqədar" risk xidmət sazişi 2021-ci il dekabrın 14-də imzalanıb. Sazişə əsasən, hazırda yataqların bərpası və işlənməsi GL-in "Taghiyev Operating Company" əməliyyat şirkəti tərəfindən həyata keçirilir.

Qeyd edək ki, GL şirkəti hazırda Salyan rayonunda "Kürsəngi" və "Qarabağlı", Abşeron yarımadasında "Buzovna-Maştağa", "Qala" və "Zirə" yataqları olmaqla Azərbaycanda beş yataqda neft-qaz əməliyyatları həyata keçirir. GL-in biznes portfelinə "Salyan Oyl Limited", "Taghiyev Operating Company" əməliyyat şirkətləri və sənaye üzrə çoxsaylı xidmətlər təqdim edən "GL Technical Services" daxildir. Şirkət 2024-cü ilin ortalarına kimi müasir texnologiya və metodların tətbiqi ilə daha iki quyunun qazılmasını planlaşdırır.

Göründüyü kimi, Azərbaycanın quruda yerləşən yataqlarının işlənilməsinin davam etdirilməsi ölkəmizdə neft hasilatının artırılmasına əlavə imkanlar yarada bilər. Elə mütəxəssislər də bu yataqları hasilatın artırılması üçün sabit və etibarlı mənbə hesab edirlər.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Ekspert rəyi

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



Azərbaycanın ilk özəl enerji şirkəti GL-nin tabeliyindəki əməliyyat şirkəti "Taghiyev Operating Company" (TOC) tərəfindən istismar edilən "Buzovna-Maştağa" yatağında dörd yeni quyunun qazılması zamanı əldə etdiyi nəticə, həqiqətən də, ölkəmizin neft-qaz sənayesi üçün önəmli bir hadisədir. Bu, bariz şəkildə göstərir ki, məsələyə kompleks yanaşmanın nəticəsi olaraq yeni texnologiyaların tətbiqi ilə quyuların qazılmasında, eləcə də mənimsənilməsində və layların neftveriminin artırılmasında necə yüksək nailiyyətlər əldə etmək mümkündür.

Məsələnin ən önəmli cəhətlərindən biri də budur ki, özəl sektor neft-qaz sənayesinə yatırım edir. Heç şübhəsiz, bu Azərbaycanın neft-qaz sənayesinin cəlbedici olmasının nəticəsi, iqtisadiyyatın digər sektorları ilə müqayisədə rəqabətdə qalib gəlməsidir. Yəni kapital rəqabətində daha cəlbedici olmasının göstəricisidir ki, məhz yeni texnologiyaları tətbiq etməklə məhsuldarlığı artırmaq mümkündür. Digər bir tərəfdən, burada nə qədər yerli şirkət, onların birgə əməyi, həmçinin SOCAR-ın törəmə şirkətləri iştirak edir. Yəni, bu, kompleks şəkildə zəncirvari dəyər yarada bilən bir hadisədir. Çünki bundan həm hasilatçılar, həm bu sahəyə xidmət göstərənlər, həm də nefti satanlar, təbii ki, "qara qızıl"ı kapitala çevirəndən sonra ondan yararlanırlar.

**Yeri gəlmişkən, Azərbaycanın yerli istehsalçı şirkəti GL-in rəhbəri Asif Zeynalovun fikrincə, karbohidrogen yatağı özü canlı orqanizm kimidir.** Hər insanın sağlamlığının bərpası tibbi nöqteyi-nəzərdən individual xarakter daşıdığı kimi, yataqların neftverimliyinin artırılması da onun xüsusiyyəti və geoloji xarakteri ilə bağlıdır. Ona görə də yeni yataq axtarışı və ya köhnəsinə kapital yatırımı sırf yerin təkində müəyyən limitlənmiş hissədə baş verənlərlə əlaqəlidir.

A. Zeynalov bir qədər əvvəl buna misal kimi "Salyan Oil" əməliyyat şirkətindəki yataqlarda davamlı olaraq 21 illik hasilat azalmasının GL-in quyuların mənimsənilməsinə tətbiq etdiyi innovativ həllər hesabına artım nümayiş etdirdiyini bildirmişdi. "Buzovna-Maştağa" yatağında əldə edilmiş uğurlu nəticə də məhz innovativ həllərin, yeni texnologiyaların tətbiqi sayəsində mümkün olub.

# Azərbaycan müəllimlərinin XVI qurultayı







(əvvəli 1-ci səhifədə)

Nazir çıxışında “Böyük Qayıdış” proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərdə təhsil infrastrukturu, fəaliyyətə başlayan tədris müəssisələri, eləcə də planlaşdırılan digər layihələrdən danışıb.

Emin Əmrullayev pandemiya dövründə təhsil, məktəbəqədər təhsildə əhatəliliyin artırılması, ümumi təhsildə səriştə əsaslı məzmunun tətbiqi, STEAM sinif və mərkəzlərinin yaradılması, həmçinin şagirdlərin beynəlxalq fənn olimpiadalarında uğurlarından danışıb. Nazir inkişaf etmiş ölkələrin təcrübəsindən nümunələr gətirərək müəllimlərin əməkhaqqına dair yeni yanaşmaları vurğulayıb və aylıq vəzifə maaşlarının artan dinamikasını təqdim edib.

Təhsil tələbə kreditlərinin tələbələr üçün ali təhsilə əlçatanlığın təmin edilməsindəki rolundan danışan Emin Əmrullayev 2022–2023-cü tədris ili üzrə 20 min, 2023–2024-cü tədris ili üzrə isə 26 min nəfərin təhsil tələbə kreditindən faydalandığını vurğulayıb.

Azərbaycan müəllimlərinin XVI qurultayının “Heydər Əliyev İli”nə təsadüf etdiyini xatırladan Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri Bəxtiyar Əliyev bu baxımdan tədbirin əlamətdar olduğunu vurğulayıb. Bugünkü tədbiri Azərbaycan müəllimlərinin zəfər qurultayı kimi dəyərləndirən Bəxtiyar Əliyev təhsil sahəsində aparılan sistemli islahatların əhəmiyyətindən də danışıb. Son 20 ildə təhsil sahəsinə ayrılan xərclərin artdığını diqqətə çatdıran komitə sədri təhsil sahəsində qanunvericilik bazasının möhkəmləndiyini qeyd edib.

Qurultayda çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli vurğulayıb ki, son 5 ilin ən mötəbər hadisəsi Azərbaycanın suverenliyinin tam bərpa olunmasıdır. Bu gün qurultayda işğaldan azad edilmiş ərazilərimizdə çalışan müəllimlərin də iştirak etdiyini xatırladan İsa Həbibbəyli bunu digər qurultaylardan əsas fərq kimi vurğulayıb.

Akademik yeni bilik və bacarıqlara malik nəsillərin yetişdirilməsinin müstəqil Azərbaycan elminin ən böyük nailiyyətləri olduğunu bildirib.

Sonra Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə 2023-cü ildə həyata keçirilən imtahanların statistikasını diqqətə çatdırıb. O bildirib ki, təhsil sistemində həyata keçirilən bütün islahatların nəticəsi müəllimlərin bilik və bacarığı, səriştə və şəxsiyyətindən asılıdır.

Məleykə Abbaszadə çıxışının sonunda təlim metodlarının təkmilləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinin önəmini diqqətə çatdırıb.

ADA Universitetinin rektoru Hafiz Paşayev çıxışında sürətlə dəyişən dünyada tədris proqramlarının daim yenilənməli və təhsildə yeni interaktiv metodların istifadəsinin genişləndirilməli olduğunu qeyd edib. Hafiz Paşayev bildirib ki, gənclərə təhsil istiqaməti və təhsil ocağı üçün çoxlu seçimlər yaradılmalıdır. Həqiqət budur ki, öyrənmə məsuliyyətinin əsas payı təhsilalanların üzərinə düşür və müəllim onlara bu məsuliyyətin dərk olunmasında kömək edə bilər.

Qurultayda çıxış edən Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin direktoru Həcər Mahmudova, Bərdə şəhəri 7 nömrəli tam orta məktəbin tarix müəllimi, Vətən müharibəsi iştirakçısı Ceyhun Əsədov təhsilə və müəllimlərə göstərilən dövlət qayğısından, ölkəmizdə müəllim nüfuzunun, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində atılan addımlardan danışıb, müəllimlərin sertifikatlaşdırılması və diferensial əməkhaqqı sisteminin tətbiqinin onlar arasında sağlam rəqabəti və motivasiyanı gücləndirdiyini, eləcə də Azərbaycan müəllimlərinin üzərinə düşən missiyanı hər zaman şərəflə yerinə yetirdiklərini vurğulayıblar.

Plenar iclasdan sonra qurultay öz işini “Ümummilli lider Heydər Əliyev və Azərbaycan təhsili”, “İşğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdış”, “Azərbaycan dili yeni çağırışlar müstəvisində”, “Rəqəmsallaşma, süni intellekt və təhsilin transformasiyası”, “Ümumi təhsilin məzmununa müasir yanaşmalar”, “Ümumi təhsilin idarə olunmasına müasir yanaşmalar”, “Peşə təhsili və gələcək üçün bacarıqlar”, “Müəllim hazırlığı və müəllimlərin peşəkar inkişafının prioritet məsələləri”, “Elm və ali təhsilin inteqrasiyası”, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlbi: inklüziv, inteqrasiyalı və xüsusi təhsil”, “Məktəbəqədər təhsilin məzmunu və əhatə dairəsinin genişləndirilməsi” mövzularında panel sessiyalarla davam etdirib.

Qurultay işini bu gün yekunlaşdıracaq.

*XQ*

# Naxçıvanda təhsil yeni mərhələdə

***Son dövrlərdə Naxçıvan Muxtar Respublikasında islahatların keçirildiyi, innovativ yeniliklərin tətbiq olunduğu əsas sahələrdən biri də təhsildir. Məqsəd bu sferada da əsaslı dönüş yaratmaq, pedaqoji heyətin peşəkarlığını artırmaq, ümumtəhsil məktəblərini ixtisaslı müəllim və yardımçı heyətlə komplektləşdirmək, gələcəyimiz üçün geniş dünyagörüşlü, yüksək bilikli, milli dəyərlərə bağlı vətənpərvər gənclik hazırlamaqdır.***



**Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov XQ-yə bu mövzuda açıqlamasına ilk dəfə olaraq təhsil müəssisələrində boş olan tədris-köməkçi heyət vəzifələrinə işə qəbul üzrə keçirilən müsabiqə haqqında məlumatla başladı:**

– Təhsil müəssisələrinin yüksək ixtisaslı kadrlarla təmin edilməsi və işə qəbul prosesinin şəffaf həyata keçirilməsi məqsədilə dekabrın 9-da Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində vakant olan təsərrüfat müdiri, kitabxana müdiri, kitabxanaçı, uşaq birliyi təşkilatının rəhbəri, psixoloq, laborant və katibə-makinaçı vəzifələri üzrə ilk dəfə olaraq müsabiqə keçirildi. Müsabiqəyə 126 vakant vəzifə çıxarılmışdı, test imtahanında isə 600-ə yaxın namizəd iştirak edirdi.

Müsabiqənin test mərhələsində hər bir namizədə vəzifə üzrə 10, məntiq, dünyagörüşü, qanunvericilik və kompüter bilikləri üzrə 10 olmaqla – 20; təsərrüfat işləri üzrə direktor müavini və təsərrüfat müdiri vəzifələri üzrə hər bir namizədə vəzifə üzrə 15, məntiqi təfəkkürün yoxlanılması üzrə 5, dünyagörüşü üzrə isə 10 olmaqla – 30 sual təqdim edilmişdi. Namizədlərə test suallarının cavablandırılması üçün 60 dəqiqə vaxt verilmişdi. Psixoloq vəzifəsi üzrə isə hər bir namizədə psixologiya üzrə 30, məntiqi təfəkkürün yoxlanılması üzrə 5, informasiya və kommunikasiya texnologiyaları üzrə 5 olmaqla – 40 sual təqdim edilmişdi. Bu sualların cavablandırılmasına isə 80 dəqiqə vaxt ayrılmışdı.

Müsabiqənin şəffaflığını təmin etmək üçün bütün zəruri tədbirlər həyata keçirilmiş, test imtahanını müşahidə etmək üçün Təhsil Nazirliyinin, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin, AMEA Naxçıvan Bölməsinin, yerli Teleradio Şurasının, ali təhsil müəssisələrinin nümayəndələri və digər qurumların müstəqil ekspertləri dəvət olunmuşdu.

Artıq müsabiqənin nəticələri yoxlanılaraq SMS vasitəsilə namizədlərin mobil telefonlarına göndərilib. Müsabiqənin test mərhələsində uğur qazanan namizədlər üçün komissiya müsahibə mərhələsi də təşkil edəcək.

**– Şübhəsiz, sonrakı mərhələdə ümumtəhsil məktəblərindəki digər boş vəzifələr belə obyekiv meyarlarla və aşkarlıq şəraitində komplektləşdiriləcək.**

– Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin təsdiq etdiyi qaydalara və əldə edilən təctübəyə əsasən, tədris ili ərzində boş olan direktor, direktor müavini, məktəbdənkənar və sinifdənxaric tərbiyə üzrə təşkilatçı vəzifələrinə işə qəbul müsabiqəsinin də keçirilməsi nəzərdə tutulur. Müəllimlərin işə qəbul imtahanı da yeni qaydalar əsasında təşkil olunacaq.

**– Bu yaxınlarda Naxçıvan Biznes Mərkəzində sahibkarların iştirakı ilə ilk dəfə olaraq təşkil etdiyiniz infoturun məqsədi nə idi, bu sahədə gözləntiləriniz nədir?**

– Bu toplantının təşkilində məqsəd Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nda nəzərdə tutulan özəl təhsil müəssisələrinin yaradılması istiqamətində sahibkarlar arasında təşviqat işlərinin aparılması idi. Belə ki, dövlət proqramında muxtar respublikada digər sahələrlə yanaşı, sahibkarlığın inkişafı sahəsində bir sıra hədəflər də müəyyənləşdirilib. Eləcə də özəl təhsil və tibb müəssisələrinin yaradılması nəzərdə tutulub.

İnfoturda iş adamlarının diqqətinə çatdırdıq ki, muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərinin əksəriyyəti dövlət müəssisələridir. Bu sahədə özəl təhsil müəssisələrinin yaradılmasına da ehtiyac var. Digər bir sahə isə məktəbəqədər təhsil müəssisələridir. Məktəbəqədər təhsil müəssisələrində 4 minə yaxın uşaq təlim-tərbiyə alır. Naxçıvan şəhərində, rayon mərkəzlərində və əhalisi çox olan bir sıra kəndlərdə məktəbəqədər təhsil müəssisələrinin yaradılmasına ehtiyac var. İş adamları bu sahəyə investisiya yatıra bilərlər.

Bildirdik ki, Naxçıvanda özəl təhsil müəssisələri yaratmaq istəyən sahibkarlar üçün Təhsil Nazirliyi və digər aidiyyəti qurumlar tərəfindən hərtərəfli şərait yaradılacaq, onlara metodiki dəstək göstəriləcək. İnfoturda naxçıvanlı iş adamları ilə yanaşı, paytaxt Bakı şəhərindən də sahibkarlar iştirak edirdi. Onlarla geniş müzakirələr apardıq. İnanırıq ki, yaxın gələcəkdə iş adamları Naxçıvanda yeni özəl müəssisələr yaradacaqlar.

***Müsahibəni hazırladı:***
***T.RÜSTƏMLİ***
***XQ***

# Danışır qurultay iştirakçıları

## Başlıca məram təhsilin məzmununa müasir yanaşmanı təmin etməkdir

**Azərbaycan müəllimlərinin XVI qurultayının hər bir iştirakçısının milli təhsilin daha da yaxşılaşdırılması və yeni çağırışlar müstəvisində görülməli olan işlər barədə özəl fikirləri var. Onlardan bir neçəsinin XQ-yə verdiyi müsahibələri təqdim edirik.**

**Dilqəm Tağıyev, AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktoru:**

– Keyfiyyətli təhsil olmadan elm inkişaf edə bilməz. Bir sözlə, bu iki istiqamət bir-birinə sıx bağlı şəkildə inkişaf etməlidir. İnteqrasiya həmişə olub. Sadəcə baxmaq lazımdır ki, irəliləyişə necə təsir edir. Elə formalar tapmaq lazımdır ki, inkişafyönümlü olsun və dövrün tələblərini ödəyə bilsin.

Ölkəmizdə özəl sektor elmə maraq göstərmir, onun inkişafına yardımçı olmaq istəmir. Özəl sektor sadəcə hazır layihəni icra etməkdə maraqlıdır. Bir tərəfdən bu, haradasa başa düşüləndir, onun kommersiya maraqları var. Odur ki, özəl sektora da müəyyən resurslar yönəldilməlidir. Belə olsa, onlar da elmin inkişafına töhfə verərlər.

**Elçin Babayev, Bakı Dövlət Universitetinin rektoru:**

– Ali təhsil ocağı olaraq, əsas missiyamız ölkəmiz üçün savadlı kadrlar hazırlamaqdır. Düşünürük ki, ali məktəblərdə nəzəriyyə ilə təcrübə paralel olmalıdır. Burada əsas məsələ tapşırılan sahəni bilən ixtisaslı kadrların hazırlığıdır və bu, bizdə var.

Təklif edərdim ki, magistraturaya qəbul zamanı istiqamətlər universitetlər arasında bölünsün. Məsələn, BDU fizika, riyaziyyat üzrə magistratura qəbulu aparsın, o biri universitet də digər sahələr üzrə. Onda fərqli istiqamət üzrə resurslar da səmərəli paylanar.



Elmin kommersiyalaşması üzərində də çalışılmalıdır. Fakültələr, kafedralar özləri qazanıb maddi rifahlarını yaxşılaşdırmalıdırlar. Biz təkcə baza maliyyələşməsi üzrə yox, həm də şaxələndirilmiş maliyyələşməyə diqqət ayırmalıyıq.

**İradə Hüseynova, AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru:**

– Elm və təhsilin inteqrasiyasını olduqca zəruri hesab edirəm. BDU ilə direktoru olduğum institutun birgə işləri göstərir ki, bu, müsbət nəticələr verir. Universitetdə nəzəriyyə öyrənən tələbə biliklərini tətbiq etməklə formalaşır. Bu kimi təcrübələr artırılmalıdır. Elm və təhsili akademik səviyyə ilə yanaşı, həm də gəlir gətirən sahəyə çevirməliyik.

**Nicat Məmmədli, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müşaviri:**

– Azərbaycan kimi ölkələrdə sahələr üzrə institutları universitetlərə gətirirlər və bununla elm və təhsilin inkişaf modeli yaradılır. Düşünürəm ki, tədrisin elmə gətirilməsi yaxşı deyil. Alim elmlə məşğul olursa, tədris etməyə vaxtı olmur, tədrislə məşğul olanın da elmlə məşğul olmağa. Digər tərəfdən, gənc nəslin elmə gətirilməsi olduqca yaxşı haldır.

Elm gəncləşməklə yanaşı, inkişafdan da geri qalmır. Əslində, tədqiqat işləri daha çox universitetlərdə olmalıdır. Bu, inkişaf etmiş ölkələrin təcrübəsində də belədir və uğurlu nəticələrini verir.

**Vüqar Əliyev, BDU jurnalistika fakültəsinin dekanı:**



– Azərbaycan müəllimlərinin XVI qurultayı elm, təhsil camiəsi üçün kifayət qədər vacib və əlamətdar hadisədir. Tarixi 1906-cı ildən qoyulan bu qurultay, həm də bir ənənə halını alıb. İstər əsas hissədə edilən çıxışlar, istərsə də panellərdə qoyulan elm və təhsilə dair mövzular XXI əsrin çağırışlarına cavab verən bir çox məsələlərin həlli yoluna işıq salır. İnanıram ki, qurultayda qaldırılan bir çox məsələ qısa zamanda öz həllini tapacaq.

**Arzu Kərimov, Samux rayonu, Çobanabdallı tam orta məktəbin direktoru:**



– Mən bu qurultaya Gəncə–Daşkəsən Təhsil İdarəsindən nümayəndə kimi qoşulmuşam. Hesab edirəm ki, Azərbaycan müəllimlərinin XVI qurultayı əvvəlki qurultaylardan tamamilə fərqlənir. Ən başlıca fərq qurultayın təhsilə, elmə daim yüksək önəm vermiş ümummilli lider Heydər Əliyevin 100 illiyində baş tutmasıdır. Bir fərq isə budur ki, artıq ərazi bütövlüyümüz tam təmin edilib və işğaldan azad edilmiş rayonlardakı məktəblərin müəllimləri də qurultaya qoşulublar. Hər birimiz bundan hədsiz qürur duyuruq.

Möhtərəm Preziodentimizin təbrik məktubunun oxunması və ardınca dinlədiyimiz hesabatlar bizi çox sevindirdi. Görürük ki, əvvəlki illərlə müqayisədə çox böyük uğur və nailiyyətlər əldə etmişik. İnanıram ki, burada qoyulan yeni hədəflərə tezliklə çatılacaq.

**Ənvər Abbasov, Bakı Slavyan Universitetinin prorektoru:**



– Əvvəlki qurultaylarda da iştirak edən bir müəllim kimi deyə bilərəm ki, bu dəfə daha çox inkişafı görürəm. Təhsilin müxtəlif sahələrində təməli Ulu öndər tərəfindən qoyulmuş islahatlar, irəliləyişlər var. Hazırda inkişaf o qədər sürətli gedir ki, bugünkü proqram sabah üçün aktuallığını itirə, marağı azalda bilər. Odur ki, bu günün təhsili daha dinamik olmalı, zamanın tələbləri ilə çevik şəkildə ayaqlaşmalıdır. Biz, həmçinin dünya təhsil sisteminə inteqrasiyadan geri qalmamalıyıq.

***Hazırladı:***
***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Ortaq dəyərlərimiz

# Qazax xalqının musiqisi

III YAZI

**Qazaxca "kazak" sözü, əsas versiyaya görə, qədim türk dilindən tərcümədə "azad", sərbəst, müstəqil şəxs" mənasındadır. Müsəlman yazılı mənbələrində bu sözə "köçəri", "sərgərdan" mənasında rast gəlinir. İndiki qazaxlar çar Rusiyasında və sovet dövründə, yəni, 1734-cü ildən 1925-ci ilə qədər qırğız-kaysak və ya sadəcə qırğız adlanmışlar. Rəsmi versiyalara görə, bu, qazaxları Don kazakları ilə qarışdırmamaq üçün edilmişdi, çünki 1734-cü ilə qədər qazaxlar kazak, Qazax xanlığı isə Kazak Ordası adlanırdı.**



Hazırda qazaxlar Qazaxıstan Respublikasının əsas əhalisini (70 faiz) təşkil edir. Əksəriyyəti sünni müsəlmanlardır. Qazax dili türk dillərinin qıpçaq qrupunun qıpçaq-noqay yarımqrupuna daxildir. Bu xalqın nümayəndələri, həmçinin Monqolustan, Çin, Özbəkistan, Rusiya, Türkmənistan və Qırğızıstanda yaşayırlar. Monqolustanda qazaxlar sayca ikinci, Özbəkistanda üçüncü, Türkmənistanda isə dördüncü yerdə dururlar.

Qədim dövrlərdə indiki Qazaxıstan ərazisinin etnik mənzərəsi rəngarəng olmuş, burada müxtəlif etnik mənşəli tayfalar və xalqlar məskunlaşmış, sonradan müasir qazaxların etnogenezində öz izlərini qoymuşlar.

Mərkəzi Asiyanın şimal çöl qurşağında tarixən dünya sivilizasiyasının ən erkən formalarından biri – köçəri maldarlıq təsərrüfatı yaranmışdır. Orta Asiya regionunda neolit dövrünün mühüm nailiyyəti isə vəhşi atların çapmaq üçün əhliləşdirilməsi olmuşdur. Bu həyat tərzi qazaxların musiqi təfəkküründə də aydın surətdə əksini tapıb.

Qazax xalqının ənənəvi musiqi mədəniyyəti xalq və şifahi ənənəli professional musiqi yaradıcılığını özündə birləşdirir. Buraya xalq mahnıları, dastanlar, instrumental musiqi, habelə peşəkar müğənni və çalğıçıların zəngin yaradıcılığı daxildir ki, sonuncular həm də bəstəçidirlər. İstər folklor musiqisi, istərsə də peşəkarların yaradıcılığı keçən əsrin ortalarına kimi şifahi ənənə şəklində mövcud olmuşdur.

Qazax mahnılarının iki adı var: ən və ölənq. Ən – mahnının musiqi tərəfinə aiddirsə, ölənq onu ədəbi janr kimi səciyyələndirir. Mahnıların ifası zamanı qazaxlar çox vaxt dombıra alətinin müşayiətindən istifadə edirlər. Bu alət peşəkarların əsas aləti olmaqla yanaşı, eyni zamanda məişət musiqisində də geniş istifadə olunur.

Qazax xalq mahnılarının janr təsnifatına əmək, mərasim, məişət və tarixi mahnılar daxildir. Əmək mahnıları qazaxların əmək proseslərinin müşayiəti zamanı yaranmışdır. Qazax kişilərinin əsas işi maldarlıq olub. Ona görə də kişilərin oxuduğu əsas mahnılar çoban mahnıları idi. Bu mahnıların da iki növü məlumdur: At ilxısını otaran ilxıçı mahnıları – jılkışı əni və qoyun otaranların mahnıları – köyşı əni. Bəzi ilxıçı və köyşı mahnılarında əmək mövzusu sevgi motivləri ilə birləşir.

Bu mahnılar sadə iki hissəli formadadır. Bəzən nəqəratdan sonra fit də çalınır ki, bunu da sırf çoban peşəsi ilə bağlamaq olar. Qazax mərasim mahnıları iki əsas qrupa bölünür: 1. Toy və matəm mahnıları. 2. Təqvim mahnıları və məlhəm (müalicəvi) mahnıları.

Toy mahnıları içərisində "jar-jar" nəğmələri geniş yayılıb. Bu mahnılar öz adını daim təkrarlayan "jar-jar" rədifindən götürür və toy mərasimində növbə ilə qadınlar və kişilər tərəfindən oxunur. Bu sayaq mahnılara özbək və türkmən xalqlarının musiqisində də "yar-yar" və "yor-yor" adı ilə rast gəlmək mümkündür.

Mahnıların məzmunu son dərəcə rəngarəngdir: gəlinin tərifindən və evlilik həyatına dair nəsihətlərdən tutmuş, şən zarafata kimi. Mahnıların melodik üslubu deklamasiyaya yaxınlaşır. Burada adətən 7 və 6 hecalı şeir misraları növbələşir ki, sonuncuya daim təkrarlanan "yar-yar" ikihecalı neqaratı qoşulur. Toy mahnıları sıraslna gəlinin ata evi ilə vidalaşmasını əks etdirən mahnılar – "sınsu" və ya "kız sınsu" da aiddir. Bu mahnılar ah, nalə üslubundadır.

Qazax xalq mahnı yaradıcılığının ən geniş hissəsini məişət mahnıları təşkil edir. Buraya laylalar, uşaq mahnıları, lirik və məzəli mahnılar aiddir. Məişət mahnıları arasında ən böyük yeri, digər xalqlarda olduğu kimi, lirik mahnılar tutur. Məhz bu mahnılarda inkişaflı melodika və kuplet forması müxtəlifliyi ilə seçilir.

Qazax məişət mahnıları arasında digər xalqlarda, o cümlədən özbək, qırğız və azərbaycanlılarda olduğu kimi, dialoq (deyişmə) forması çox yayılıb. Bunlara aytıs deyilir. Aytısların oxunması zamanı ifaçılar növbələşərək dəyişir və hazırcavablıqda yarışırlar. Bu mahnılar müxtəlif məzmunda – lirik-sevgi, zarafat, məsxərə xarakterlidir.

Deyişmə mahnıları mətndən çox bədahətən qoşulur və 4 misralı bayatı formasının xatırladır. Bu dialoqların musiqsi yarıdanışıq və yarıoxuma üslubundadır və sadə quruluşlu kuplet formasına malikdir.

Ümumiyyətlə, dialoq forması qazaxların mahnı yaradıcılığında son dərəcə populyardır. Aytısların ümumi üslubuna daha yaxın janr isə məzəli və satirik mahnılardır. Onların forması sadə, ritmi dəqiqdir. Burada mətn qısa şeir misraları ilə qurulur.

Qazax xalq musiqisinin şeir mətni həm qısa, həm də uzun misralardann ibarəətdir və bu cəhət metodikanın sərbəst inkişafı üçün böyük imkanlar açır. Mahnılarda sadə, qısa reçitativ ibarələrdən tutmuş, geniş nəfəsli melodik quruluşlara rast gəlirik. Bu melodiyalar mahnı mətnlərinin emosional deklamasiyasından yaranır və innovasiya üzlubunu xalq danışıq dilindən alır.

Qazax xalq mahnılarının əsasında diatonik məqamlar durur. Bəzi hallarda pentaton qammaya da rast gəlinir. Erkən dövrə aid olan mahnılarda məhdud çərçivəli məqamlar üstünlük təşkil eidr və onların diapozonu seksta intervalından böyük olmur. İnkişaflı kuplet formalı mahnılarda oktava və nona diapozonu da nəzərə çarpır.

Qazax xalqı çox böyük ərazilərdə məskunlaşmışdır. Bununla əlaqədar bir-birindən uzaq yerlərin fərqli məişət şəraiti, dil dialektləri yerli mahnı üslublarının meydana gəlməsini şərtləndirmişdir. Qazaxların cənub bölgəsinin – Aralboyu və Sırdərya sahillərinin mahnıları sadə forması, dəqiq ritmi və ümumi ovqatın oynaqlığı ilə seçilir. Qərbdə – Uralarxasında, Xəzər dənizi sahillərində isə bir tərəfdən geniş avazlı melodiyaya malik lirika, digər tərəfdən isə reçitativ terme formaları inkişaf etmişdir.

Tarixi qədimlərə gedib çıxan qazax eposu ilkin dövrlərdə instrumental müşayətsiz və vokal hekayət formasında mövcud olmuşdur. Zaman keçdikcə epik rəvayətlər kobız, daha sonra isə dombıranın müşayiətilə ifa edilməyə başlamışdır. Bu rəvayətlərdə məhəbbət mövzusu böyük yer tutur.

Bizə gəlib çatmış qazax eposunun tarixi əsasında XV-XVII əsrlərin hadisələri durur. Epik novella xarakterli rəvayətlər içərisində daha çox məşhurluq qazanmışları bunlardır: "Kozı-Korpeş və Bayan Slu" (birincisi bəy oğlu, ikincisi bəy oğludur), "Kız Jibek" (İpək qız") və "Ayman və Çolpan" (hər ikisi bəy qızlarıdır).



Bu rəvayətlərin hər ikisində diqqəti çəkən xüsusiyyət məhz qadın obrazlarının öz hüquqları uğrunda cəsarətlə mübarizə aparması və qalib gəlməsidir. Bundan başqa istilaçı kalmık xanı Karamanla mübarizə aparan qəhrəman Kambar-Batır haqqında hekayət də xalq arasında çox sevilir.

Qazaxların epik hekayəti jır, onu söyləyənlər isə jırçı adlanır. Hekayət forması nəinki qazax eposlarında və bir sıra erkən dövrün mahnılarında, habelə akınlairn musiqili-poetik yaradıclığında da istifadə olunur.

Reçitativ mahnı kimi müstəqil surətdə istifadə olunan jır forması terme və ya jeldirme adlanır. Sonuncu termin hərfi tərcümədə "at kimi çapmaq" deməkdir və yanıtmac tempində sürətli ifa ilə bağlıdır. Terme üçün 7 hecalı şeir forması, jeldirme üçün isə 11 hecalı şeir misrası səciyyəvidir.

Qazaxların tarixən 40-a yaxın musiqi aləti olub. Lakin hazırda daha çox istifadə etdiyi musiqi alətləri bunlardır: dombıra, kobiz, sıbızqıı, şan kobız, jetigen, danqıra.

Görünən budur ki, digər türk xalqları kimi, qazaxlar da zəngin folklor və musiqi ənənələrinə sahibdirlər. Təqdirəlayiq haldır ki, müstəqil Qazaxıstanda bu ənənələrin qorunması və inkişaf etdirilməsi üçün dövlət səviyyəsində davamlı işlər görülür.

***Lalə HÜSEYNOVA,***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor***

Qardaş toplumlar

**Tarix boyu böyük dövlətlərin Qafqaz uğrunda mübarizəsi davam etsə də, Rusiya son bir neçə əsrdə bu coğrafiyada hökmranlıq edən əsas güc olmuşdur. Rusiyanın bölgəni ələ keçirmək cəhdləri XVIII əsrin sonlarında başlamışdır və 1859-cu ildə İmam Şamilin ruslara təslim olması ilə Qafqazın sonuncu müqavimət hərəkatına 250 min nəfərlik əsgəri güclə son qoyulmuşdur. Bununla da Şimali Qafqaz xalqlarının bir əsrə yaxın davam edən azadlıq mübarizəsi dayandırılmışdır.**

# Qumuqların tarixi və etnik mənşəyi




1813-cü ildə sərhədləri Dərbənddən Kabardinə qədər uzanan Qumuq xanlığı (Qumuq Şamhallığı) Rusiya tərəfindən işğal edildi və 1867-ci ildə Rusiyanın Qafqazı tamamilə ələ keçirməsi ilə ləğv edildi. Osmanlı İmperiyasından sığınacaq alan qumuqların bir qismi Türkiyəyə köçmək məcburiyyətində qaldı, qalanları isə rusların hakimiyyəti altında yaşamağa davam etdilər.

Qumuq türklərinin tarixi və etnik mənşəyi ilə bağlı müxtəlif fikirlər irəli sürülüb: ümumi inanc onların Qafqaz hunlarının və xəzərlərin varisləri olmaları, rusların Qafqazı işğalına qədər bu ərazidə məskunlaşan türk tayfası kimi qəbul edilmələridir. Lakin qumuq tarixini və dilini öyrənən tədqiqatçılar fərqli fikirlər də irəli sürmüşlər. Məsələn, bəzi mənbələrdə qazi qumuqların (lakların) bir hissəsinin düzənliyə enərək oradakı türklərə qarışması nəticəsində yarandıqları bildirilir, bəziləri isə onları Qaraçay-Balkar və Krım türklərindən qopmuş bir toplum olaraq görürlər.

Qumuq sözünə rast gəlinən ilk qaynaq Mahmud Kaşğarinin "Divani lüğət-türk" əsəridir. Toplu halda Rusiya Federasiyasının (RF) Dağıstan Respublikasında, az qismi isə qonşu İçkeriya (Çeçen), İnquş, Quzey Osetiya respublikalarında və Türkiyədə yaşayırlar. Dağıstanın Xasavyurd, Babayurd, Qızılyurd, Karabudahkənd, Kayakənd, Kaytak şəhər və bölgələrində yaşayan qumuq türklərindən bəzi etnik qruplar isə Çeçenistanın Qudermes və Şimali Osetiyanın Mozdok rayonlarında məskunlaşıblar.

Hazırda qumuqların əksəriyyəti Dağıstanın Mahaçqala, Buynaks, İzberbas, Kaspiysk, Kizlar kimi şəhərlərində yaşayır. Mahaçqala həm də qumuqların tarixi mərkəzidir. Vaxtilə Şimali Dağıstan düzənliklərinin və Xəzər dənizi sahillərinin dominant etnik elementi olan qumuqlar 1990-cı illərin əvvəllərində, hətta öz tarixi bölgələrində 22 faiz əhalisi olan azlığa çevrilib. Sovet rəhbərliyinin qərəzli məskunlaşma siyasəti nəticəsində əkin sahələrinin yarısını itirən qumuqlar şəhərlərə köçməli olublar. Nəticədə, bu gün Dağıstanda urbanizasiya səviyyəsi (47 faiz) ən yüksək olan xalqlardan biri də qumuqlardır.

2002-ci ilin siyahıyaalmasında RF-də qumuqların sayının 425 min nəfərə qədər olduğu göstərilir. Bəzi mənbələrdə isə bu rəqəmin 600 min, hətta bir milyon yarım olduğu qeyd edilir. Türkiyədə 10 min nəfərdən çox qumuğun yaşadığını yazırlar.

Qumuqların əksəriyyəti rus dilini ana dili kimi bilsələr və bu dildən ictimai yerlərdə, hökumət idarələrində ünsiyyət vasitəsi kimi istifadə etsələr də, öz aralarında ana dilində danışmağa üstünlük verirlər.

Türk dilinin qıpçaq qrupuna daxil olan qumuq dilində oğuz türkcəsinin xüsusiyyətləri əhəmiyyətli dərəcədə görünür. Azərbaycan, Krım, Kazan, Türkmənistan, Özbəkistan və bəzi başqa türkdilli ərazilərdə qumuqların dili tərcüməsiz başa düşülür. Yüzillər boyu ərəb əlifbasından istifadə edən qumuqlar Sovetlər Birliyində yaşayan əksər türk xalqları kimi 1929-cu ildən latın qrafikalı əlifbaya keçdilər. Lakin bu, uzun sürmədi. Onlar üçün də 1938-ci ildə kiril qrafikası ilə əlifba yaratdılar. Bu əlifbada 38 hərf var. Türk xalqlarının əksəriyyətinin danışarkən eyni cür səsləndirdikləri səslər fərqli işarələrlə göstərildiyindən türk soylu insanlar bir-birlərinin yazılarını rahat oxuya bilmirlər.

Saylarının az olmasına baxmayaraq, qumuq türkcəsi bütün Dağıstanda avar dilindən sonra 2-ci ən çox danışılan dil olub. Qumuq türkcəsindən əsrlər boyu müxtəlif dillərdə danışan Qafqaz xalqlarının ortaq danışıq dili kimi istifadə edilmişdir. Qumuq türkləri XX əsrin əvvəllərinə qədər Qafqazın həm siyasi, həm mədəni, həm də ictimai və dini həyatına ciddi təsir göstərmişdir.

Altay dilləri nəzəriyyəsinin qurucusu Q.J.Ramsted Quzey Qafqazda qumuq türkcəsinin geniş yayılmasına və qonşu xalqlar arasında ünsiyyət vasitəsinə çevrilməsinə xüsusi önəm vermişdir. 1918-ci ildə keçirilən Quzey Qafqaz xalqlarının milli qurultaylarında qumuq türkcəsi dağlı xalqları adlandırılan 50-ə yaxın xalqın və etnik qrupun ortaq dili kimi qəbul edilmişdi.

Professor Bəkir Çobanzadə 1926-cı ildə Bakıda qumuq dili və ədəbiyyatından bəhs edən silsilə məqalələr yazaraq onların bir qismini jurnallarda çap etdirmişdir. Azərbaycanın mühacirətdə olan ictimai-siyasi xadimi və elm adamı Mirzə Bala Məmmədzadə İslam ensiklopediyasında qumuqlar haqqında yazdığı məqaləsində onların tarixindən, soykökündən bəhs etməklə yanaşı, ədəbiyyatları haqqında da bilgi vermişdir.

Azərbaycan şairi, rəssam və xeyriyyəçi, "Xan qızı" kimi tanınan Xurşidbanu Natəvanın əri knyaz Xasay xan Usmiyev də qumuq idi. Vaxtı ilə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi omuş, Azərbaycanın böyük dövlət və elm xadimi Əziz Əliyev bütün Quzey Qafqaz xalqlarının, eləcə də qumuqların rəğbət bəslədiyi rəhbərlərdən olub. Mahaçqalanın mərkəzi küçələrindən biri Əziz Əliyevin adını daşıyır və burada görkəmli siyasətçinin möhtəşəm heykəli ucaldılıb. Dağıstan əhalisini Stalin repressiyasından xilas edən bu şəxsiyyət haqqında bölgənin 100-dən çox yaşı olan ən populyar qəzeti, SSRİ-nin iflasına qədər Sov. İKP Dağıstan Vilayət komitəsinin mətbu orqanı olmuş qumuq dilində nəşr edilən "Yoldaş" qəzetində məqalələr yer alır.

Azərbaycanda qumuqların dilinə, mədəniyyətinə daim dərin maraq olmuşdur. Tanınmış folklorşünas alim, tədqiqatçı və publisist Əli Şamilin bu sahədə əməyini xüsusi qeyd etmək yerinə düşər. Bununla bərabər, bu istiqamətdə tədqiqatların davam etdirilməsinə ehtiyac var.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Ankara Qərbi Azərbaycana Qayıdışa dəstək verdi

**Ankarada səfərdə olan Milli Məclisin Azərbaycan–Türkiyə Parlamentlərarası əməkdaşlıq üzrə işçi qrupunun nümayəndə heyətinin iştirakı ilə Ankara Universitetində Qərbi Azərbaycana qayıdış mövzusunda dəyirmi masa keçirilib.**



Azərbaycan Respublikası Milli Məclisi (MM) və Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvlərinin, Ankarada fəaliyyət göstərən Qazi, Sosial Elmlər, Ortadoğu Texniki universitetlərinin rektorlarının, Ankara Universitetinin professor-müəllim heyətinin iştirak etdiyi tədbir Ankara Universitetinin rektoru Necdet Ünüvarın açılış nitqi ilə başlayıb.

Tədbirdə çıxış edən MM-də Azərbaycan–Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Qərbi Azərbaycan İcmasının (QAİ) Ağsaqqallar Şurasının sədri Əhliman Əmiraslanov Ermənistan tərəfindən zorla doğma yurdlarından qovulmuş azərbaycanlıların hüquqlarının beynəlxalq platformalarda müdafiə edilməsinin əhəmiyyətini qeyd edib.

Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərli təşkilatın fəaliyyəti, məqsədi və məramı haqqında məlumat verərək Qərbi Azərbaycandan olan əhalinin əsas hüquqlarının beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilməsinin və təmin olunmasının vacibliyini vurğulayıb. Daha sonra nümayəndə heyətinin tərkibində olan millət vəkilləri Nizami Cəfərov, Fəzail Ağamalı, Anar İskəndərov, Məlahət İbrahimqızı Qərbi Azərbaycan İcmasının fəaliyyətinin müxtəlif aspektləri haqqında məlumat veriblər. TBMM-də Türkiyə–Azərbaycan dostluq qrupunun sədri Şamil Ayrım, çıxışında Qərbi Azərbaycandan məcburi köçürülmüş əhalinin hüquqlarının beynəlxalq platformalarda müdafiəsi məqsədilə Türkiyə və Azərbaycan parlamentləri arasında əməkdaşlığın zərurətini vurğulayıb.

Daha sonra çıxış edən natiqlər – Qazi, Orta Doğu Texniki, Sosial Elmlər universitetlərinin rektorları və Ankara Universitetinin professor-müəllim heyəti üzvləri Qərbi Azərbaycan mövzusunun tədris prosesində işlənilməsi, bu mövzuda akademik tədbirlərin ardıcıl olaraq keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Tədbirin sonunda iştirakçılar Ankara Universiteti Rektorluğu önündə 2001-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən əkilmiş ağacın önündə xatirə şəkli çəkdirərək, Ulu öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

***XQ***

# Nə yaxşı ki, türk olmuşam...

**(ixtisarla)**

Boy boylayıb, soy soylayıb ozan babam, Qorqud dədəm,
Qazax dədəm, özbək dədəm, türkmən dədəm, başqırd dədəm.
Savaşlardan barışlara cığır açıb Bozqurd dədəm,
Haqsızlığın qarşısında susmamışam – görk olmuşam,
Nə yaxşı ki, türk doğulmuş, türk gəlmişəm, türk olmuşam.

Aydoğduyam, Gündoğduyam, Tanrıdağdan başlar yolum,
Qandal nədi bilməz əlim, zəncir nədi bilməz qolum.
Dağlar aşıb, çaylar keçib bəyim, xanım, şahım, ulum,
Bərkə-boşa düşən zaman, inadımdan bərk olmuşam,
Nə yaxşı ki, türk doğulmuş, türk gəlmişəm, türk olmuşam.

Qutluq Kağan, Xəzər Xaqan, Batı, Mete, Babur şahım,
Atilla, Alptəkin, Səlcuq, Xarəzmşah, Osman şanım.
Əmir Teymur deyəcək ki, tanı məni – bu nişanım –
Başımdakı börküm kimi, el-obama börk olmuşam,
Nə yaxşı ki, türk doğulmuş, türk gəlmişəm, türk olmuşam.

Uzaq yollar yora bilməz Simurqumun qanadını,
Rüzgarları ötüb keçər, mahmızlasam boz atımı.
Xain kafir yaxşı bilir, yumruğumu, toqatımı,
Biri türkə soyuq baxsa, özüm türkə kürk olmuşam,
Nə yaxşı ki, türk doğulmuş, türk gəlmişəm, türk olmuşam.

***Elxan YURDOĞLU,***
***şair-publisist***
**Naxçıvan**

Diskussiyadan həqiqətə

# Rəsmi “1842-ci il”, yoxsa mübahisəli “1837-ci il”?

## Bir daha Zərdabinin doğum tarixi barədə

**Milli oyanış və maarifçilik tariximizin görkəmli siması, anadilli mətbuatımızn və teatrımızın banisi, bir sıra sivil fəaliyyət sahələrində də təməllər yaratmış, yeni tipli mədəniyyətin formalaşmasında ardıcıllarını yetişdirmiş Həsən bəy Zərdabinin doğum tarixi ilə bağlı diskussiyalar davam edir. Bu mövzuda müxtəlif versiyalar hələ də gündəmdədir.**

Həsən bəy Zərdabi Zərdabi irsinin tanınmış tədqiqatçılarından olan tarix üzrə fəlsəfə doktoru, dosent, Ali media mükafatçısı Esmira Cavadovanın bugünlərdə redaksiyamıza daxil olmuş məktubunda da bu barədə narahatlıqla söhbət açılır. Zərdabişünas alim bildirir ki, Həsən bəy Zərdabinin doğum ilini göstərən rəsmi mənbənin – “Attestat”ın üzə çıxarılmasına, Prezident İlham Əliyevin bu sənədə əsasən, görkəmli maarifçi-demokratın yubileyinin keçirilməsi haqqında sərəncam imzalamasına baxmayaraq, bəzi tədqiqatçılar bu gün də böyük mütəfəkkirin dünyaya göz açdığı tarixin 1842-ci il yox, 1837-ci il olduğunu dolayı mülahizələrlə sübut etməyə çalışırlar.

Filologiya elmləri doktoru, professor Baba Babayevin Həsən bəy Zərdabinin həyat və yaradıcılığına həsr etdiyi yeni monoqrafiyanın elmi nöqteyi-nəzərdən dəyərli və məzmunlu olduğunu vurğulayan Esmira Cavadova bu nəşrdəki Həsən bəy Zərdabinin 1837-ci ildə anadan olması barədə qənaətin gerçəkliyi ifadə etmədiyini söyləyir. Alim bildirir ki, yeni nəşrdə Zərdabi irsinin tədqiqatçılarından Heydər Hüseynovun, Zaman Məmmədovun, Ziyəddin Göyüşovun, İzzət Rüstəmovun, Cavid Cavadovun, Vəli Məmmədovun, Eldəniz Zərdablının, Elmira Qasımovanın, Tahir Aydınoğlunun, Qəhrəman Behbudovun, Xatirə Quliyevanın, Bəyimxanım Bəydəmirovanın, Anar İsgəndərovun, İsaməddin Əhmədovun və b. adları hörmətlə çəkilir, onların araşdırmaları barədə ətraflı məlumat verilir.

Esmira xanım daha sonra bildirir ki, Baba Babayevin Həsən bəy Zərdabinin zəngin, mənalı həyatı və yaradıcılığı barədə əhatəli bir kitab ərsəyə gətirməsi məmnunluq doğurur. Lakin tədqiqatçının özündən əvvəlki bəzi müəlliflərin Həsən bəyin 1852-ci ildə Şamaxı qəza məktəbinə gələrkən 15 yaşında olması barədə yazdıqlarına istinad edərək, onun 1837-ci ildə doğulması mülahizəsinə üstünlük verməsi qeyd edilən rəsmi sənəddə əksini tapmış faktla ziddiyyət təşkil edir. Həsən bəy Zərdabinin tərcümeyi-halını yazan həyat yoldaşı Hənifə Məlikova və Fərhad Ağazadə onun Şamaxı məktəbinə gedərkən 15 yaşda olması brədə heç nə yazmayıblar.

**Esmira Cavadova öz qənaətini belə əsaslandırır:**

– 1852–1856-cı illərdə Həsən bəy Şamaxıdakı 4 sinifli rus məktəbində oxuyur. Məktəbi bitirəndə Zərdabinin 14 yaşı tamam olur. Elə bu səbəbdən də Həsən bəy Tiflis Gimnaziyasına daxil ola bilmir, çünki məktəbə yalnız 16 yaşına çatmış şəxslər götürülürdü. 1858-ci ildə Həsən bəyin 16 yaşı tamam olanda məktəbi əla qiymətlərlə bitirdiyi üçün Qafqaz Təhsil Dairəsinin rəisi baron Nikolayın qəyyumluğu və atasının dayısı Tiflis çar ordusunda xidmət edən general-mayor Fərhad bəy Ağayevin köməyi ilə I Tiflis Gimnaziyasının 5-ci sinfinə hökumət xərcinə qəbul olunur. Həsən bəy 1861-ci ildə gimnaziyanı gümüş medalla bitirib elə həmin il imtahansız Moskva Universitetinin fizika-riyaziyyat fakultəsinin təbiətşünaslıq şöbəsinə qəbul olunur.

Həsən bəy Zərdabinin doğum haqqında şəhadətnaməsi əlimizdə olmasa da, “Attestat” adlı sənəd onu dolğunluğu ili əvəz edir. Sənədin “Attestat” adlandırılmasına baxmayaraq, burada Həsən bəyin Moskva Universitetində oxuduğu illər (1861–1865), ali məktəbi elmlər namizədi alimlik dərəcəsi ilə bitirməsi, Vətənə qayıtması, müxtəlif idarələrdə işləməsi sadalanır, eləcə də 1869-cu ilin noyabrından 1878-ci ilin noyabrınadək Bakı gimnaziyasında təbiət tarixi müəllimi işləməsi, ailə həyatı qurması, həyat yoldaşı və uşaqlarının da Məhəmməd hümmətli olması və onunla birlikdə yaşamaları qeyd edilib. Həmin “Attestat” Həsən bəyə 1878-ci il dekabrın 12-də, yəni onun 36 yaşı olarkən təqdim edilib.

Zərdabi gimnaziyada işlədiyi barədə müdiriyyətdən ona arayış verilməsini xahiş edərkən bu sənəd ona “Attestat” adı ilə verilib. Onu səlahiyyətli şəxslər imzalayıb, məktəbin möhürü vurulub, surətini isə Tiflis notariusu təsdiqləyib.




Esmira Cavadova göstərir ki, çoxsaylı arxiv sənəd və materiallarının heç birində Həsən bəy Məlikovun təvəllüd tarixinin konkret, dəqiq və aydın olaraq öz əksini tapmamasını Baba Babayev də etiraf edir. Lakin onun rəsmi sənədə yox, “ağlabatan” mülahizəyə əsaslanması təəssüf və yeni dolaşıqlıq doğurur.

*Hazırladı:*
***Tahir AYDINOĞLU***
***XQ***

**Redaksiyadan: Həsənbəy Zərdabi kimi millət fədasinin, nadir tarixi şəxsiyyətin bioqrafiyasının dolğunluğu və düzgünlüyü ictimai önəm və elmi sambal daşıyır. Bu, böyük maarifçi-demokratın yubileylərinin keçirilməsi üçün də başlıca istinadgahdır. Şübhəsiz, yeni araşdırmalar bundan sonra da aparılacaq. Son sözü isə Zərdabinin əsl doğum şəhadətnaməsinin aşkar edilməsi deyə bilər. Hələlik isə əldə olan “Attestat” yeganə rəsmi tutalğadır. Həsən bəylə bağlı rəsmi. ciddi qənaətlərin isə bu fakta söykənməsi daha məntiqlidir.**

XQ-nin müsahibəsi

**Artıq 2023-cü il sona yetməkdədir. Bu ərəfədə görülmüş işlərə nəzər salmaq üçün “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, tarix elmləri doktoru, kulturoloq Fuad Məmmədovla həmsöhbət olduq.**

**– Fuad müəllim, Azərbaycanın mədəniyyət sferasında öz yeri və çəkisi olan, devizi “Dünyanı mədəniyyət xilas edəcək” kimi səslənən “Simurq” üçün 2023-cü il nə ilə əlamətdar oldu? Ümumiyyətlə, bu il ölkənin mədəniyyət həyatını necə səciyyələndirərdiniz?**

– 2023-cü il bir neçə cəhətinə görə əlamətdardır. Birincisi, ona görə ki, bu il görkəmli siyasi və dövlət xadimi, müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli lider və Azərbaycan xalqının iftixarı Heydər Əliyevin 100 illik yubileyi ilidir. İkincisi, Prezident İlham Əliyevin rəhbərliyi ilə quruculuq, tərəqqi, xalqın rifah halının yüksəldilməsi və ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi

# “Dünyanı mədəniyyət xilas edəcək”



prioritet olub. Yüksəliş prosesində mədəniyyətin inkişafı üzrə dövlət strategiyasının daim təkmilləşdirilməsi mühüm yer tutur ki, bunda da Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xüsusi rolu var. Mədəniyyət Nazirliyi də öz növbəsində mədəni inkişafın yeni strateji kursunun işlənib hazırlanması və həyata keçirilməsinə yönəlmiş ciddi innovativ tədbirlər reallaşdırmağa başlayıb. Eyni zamanda, nazirliyin yaradıcılıq fəaliyyəti ilk dəfə olaraq mədəniyyət elminin metodologiyası və nailiyyətləri nəzərə alınmaqla həyata keçirilir. Dövlət mədəniyyət islahatları sivilizasiya böhranı şəraitində milli inkişafın yeni tələblərinə və dövrün çağırışlarına uyğun olaraq respublikanın mədəniyyət sisteminin mütərəqqi transformasiyasını təmin edir. Fərəhlə qeyd edim ki, bu il bizim “Simurq”un daha geniş qanad açması üçün də çox münbit şərait yaradılıb. Əlbəttə, Azərbaycan xalqının mənəvi mədəniyyəti fəaliyyətimizin vacib istiqamətidir.

**– Siz ölkəmizdə kulturologiyanın yaradıcılarındansınız. “Simurq”un kollektivinin 30 ildən artıq yaradıcılıq fəaliyyəti dövründə Azərbaycan xalqının mənəvi mədəniyyətinin inkişafına verdiyi töhfələr mədəniyyət, elm, təhsil tarixində parlaq iz qoyub. Üstəlik, maarifləndirmə missiyası...**

– “Simurq”un ölkə daxilində və kənarda qazandığı tanınma bizə mənəvi haqq verir söyləyək ki, onun çoxsaylı üzvlərinin və həmfikirlərinin fədakar vətənpərvərlik əzmi, yaradıcılıq fəaliyyəti ölkəmizə xeyir gətirir və bundan sonra da gətirəcək. Əfsanəvi quş – simurq kimi, assosiasiyanın üzvləri də uzun illər Azərbaycanda və dünyada bəşəriyyətin layiqli inkişafı üçün zəruri olan yüksək mənəvi mədəniyyət toxumlarını yayırlar.

Yeni mədəniyyət strategiyasının asan formalaşdırılması, ümumbəşəri mədəni biliklərin yayılması, akkulturasiya və inkulturasiya imkanlarının genişləndirilməsi məqsədilə 2023-cü ildə “Simurq” kanalı yaradılıb və ümumbəşəri mədəni biliklərin cəmiyyətdə yayılmasını təşviq edən YouTube video hostinq xidmətimizi gerçəkləşdirmişik. Burda uzun illər televiziya tamaşaları və Mədəniyyətşünaslıq üzrə Assosiasiyanın “İdrak”, “Mühazirə”, “Ovqat”, “Xəzərin sahilində”, “Gəl qonaq ol”, “Mədəniyyət dalğası” kimi ustad dərsləri yer alır. Bir çox platformalar cəmiyyətin və dövlətin rəqabətədavamlı və təhlükəsiz inkişafı, Azərbaycanda və bütün dünyada strateji bərpa olunan resurs kimi yüksək mədəniyyətli vətəndaşların formalaşması üçün mədəniyyət elminin mənalarını və transformativ imkanlarını ortaya qoyur.

Onu da qeyd edim ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 və “Simurq”un 30 illik yubileyləri şərəfinə təsisatımızın qurultayına hədiyyə olaraq müəlliflər qrupu “Mənəvi mədəniyyətin inkişafına xidmət edirik” yubiley monoqrafiyasını hazırlayıb.

**– Oktyabr ayında TÜRKSOY və Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə Şuşada I Türk Dünyası Mədəniyyət Forumu keçirildi və Siz də orada iştirak etdiniz. Təəssüratlarınızı bilmək olarmı?**

– Forum Ümummilli liderin 100 illik yubileyinə həsr olunmuşdu və yüksək səviyyədə keçdi. “Türk xalqlarının mədəni-tarixi irsi” panelinə ilk dəfə olaraq “Simurq”un prezidenti kimi mən rəhbərlik etdim. Orada öz platformamızı, gördüyümüz və görəcəyimiz işləri dilə gətirdim. Qeyd etdim ki, innovativ mədəni fəaliyyətimizin şüarı “Sülh mədəniyyəti qoruyursa, mədəniyyət sülhü xilas edir” imperatividir. Ümumiyyətlə, forum çox faydalı oldu.

**– Yeri gəlmişkən, bir qədər də “Simurq”un fəaliyyət dairəsi barədə danışmağınızı xahiş edirik.**

– Assosiasiya öz nəcib missiyasını həyata keçirmək üçün insan kapitalının, yüksək mədəniyyətli şəxsiyyətlərin və ümumbəşəri mədəni biliklərə malik liderlərin formalaşmasına kömək edən konsepsiyalar, proqramlar, layihələr hazırlayır və həyata keçirir. Biz Azərbaycan cəmiyyətinin sosiallaşmasına töhfə verən mədəniyyətşünaslıq metodologiyasının inkişafına kömək etməyə çalışırıq. Digər məqsəd azərbaycanlılarla bərabər, müxtəlif millətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin mədəni həmrəyliyidir. Onu da deyim ki, Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsindən istifadə etməklə mədəni metodologiya və təhlil metodlarını ilk dəfə “Simurq” işləyib hazırlamışdır.

Birliyin elmi və maarifləndirici fəaliyyəti nəticəsində nazirliklərin, dövlət komitələrinin, dövlət qurumlarının, “ASAN xidmət”in, “DOST”un, icra hakimiyyəti orqanlarının, ali məktəblərin minlərlə nümayəndəsi əlavə mədəniyyət təhsili alıb, mədəni maarifləndirmə ilə əhatə olunub. Eləcə də respublikanın məktəbləri, cəmiyyətləri, elm ocaqları, həmkarlar ittifaqı müəssisələri, muzeyləri, vəkillər kollegiyaları, gənclər və qeyri-hökumət təşkilatları, Azərbaycan diasporu, həmçinin UNESCO Beynəlxalq Məktəbi bu xidmətdən yararlanıb...

**– Fuad müəllim, bəs “Simurq”un 2024-cü il üçün fəaliyyət proqramında nə nəzərdə tutulur?**

– 2024-cü ildə mədəniyyətşünaslığa dair monoqrafiyaların, kitabların, dərsliklərin, elmi-kütləvi konsepsiyaların və məqalələrin nəşri davam etdiriləcək. “Simurq” Beynəlxalq mədəniyyət jurnalının (Dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsi məsələləri) növbəti, 5-ci nömrəsini də hazırlayıb nəşr edəcəyik.

Mədəniyyət konfranslarının və beynəlxalq forumların hazırlanması və keçirilməsi də nəzərdə tutulur. Həmçinin, mədəni ustad dərsləri və treninqlər, beynəlxalq iştirakla “Mədəniyyət və cəmiyyət” mədəniyyət seminarlarının keçirilməsi hədəfimizdədir. Mədəni inkişafa dair bütün yanaşmalarımız ilk növbədə azərbaycançılıq ideologiyasına uyğun olacaq və ölkədə rəqabətqabiliyyətli insan kapitalının inkişafında milli maraqlarımıza cavab verəcək.

**– Maraqlı söhbətə görə təşəkkür edirik!**

***Leyla SƏFƏROVA,***
***“Ədəbiyyat və incəsənət” portalının əməkdaşı***

KİTAB RƏFİ




## “Heydər Əliyevin siyasi dilinin lüğəti”

**AMEA-nın Dilçilik İnstitutunun Azərbaycan dilinin tarixi şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Xədicə Heydərovanın “Heydər Əliyevin siyasi dilinin lüğəti” əsəri çapdan çıxıb.**

Yeni nəşr bütün ömrünü öz xalqına həsr etmiş Ulu öndərin 100 illik yubileyinə həsr olunub. Bu lüğət dövlət xadiminin dilinə həsr olunma xüsusiyyətinə görə leksikoqrafiya sahəsində ilk təcrübədir.

Sözlüyə Ümummilli liderin politologiya elminə, diplomatiyaya və hərb sahəsinə aid işlətdiyi terminlər, abbreviaturaların açması, antroponimlər, toponimlər daxil edilib. Elmi yenilik kimi təqdim edilən lüğətə Heydər Əliyevin nitq və çıxışlarında adlarını çəkdiyi siyasi xadimlər haqqında məlumatların, tarixi-coğrafi adların, hadisə və predmetlərin şərhinin verilməsi tarixi baxımdan əhəmiyyətlidir.

Mənbə olaraq Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının “Heydər Əliyev, Elektron sənədlər toplusu”ndakı nitq, çıxış, məruzə, müsahibə və bəyanatlardan istifadə olunub.

## Dağlar pıçıldayıb o şeirləri...

**Şair Sahib Əliyevin “Son şeirlərin seçilmişləri” çapdan çıxıb.**

Yarım əsrdən artıq publisistikada qələm çalan şair Sahib Əliyev zirvələrindən Savalanın göründüyü Yardımlı dağlarının yetirdiyi istedad sahiblərindəndir. Onun 3 ciliddən ibarət “Seçilmiş əsərləri”ndən sonra buraxılmış növbəti toplusu “Son şeirlərin




seçilmişləri” adlanır.

Filologiya elmləri doktoru, professor Minəxanım Nuriyeva – Təkəlinin maraqlı “Ön söz”ü ilə açılan kitab “O da dünya, bu da dünya”, “Ana Vətən, doğma torpaq, bir də təbiət”, “İnsan və insanlıq haqqında”, “Qələmin qüdrəti”, “Məhəbbət olmasa, sevgi olmasa”, “Mövzular müxtəlif, deyimlər təzə” kimi bölümlərdən ibarətdir.

## Mülki Məcəllə: suallar və cavablar

**Hüquq və İnsan Haqları İnstitutunun əməkdaşı, hüquq üzrə fəlsəfə doktoru, dosent Asif Qədirovun “Mülki Məcəllə: suallar və cavablar” metodik vəsaiti nəşr olunub. Kitab dövrümüzün mülki hüquq münasibətləri sahəsində mövcud olan bir çox məsələlərə aydınlıq gətirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Burada hüquqşünasları, həmçinin digər sahənin mütəxəssislərini də maraqlandıran məsələlərə toxunulub.**




Sual-cavab formatında işlənilən vəsait sadə, anlaşıqlı dildə və məntiqə uyğun şəkildə tərtib edilib. Mülki hüquq sahəsində aktual xarakter daşıyan, hətta gündəlik həyatda insanların maariflənməsinə ehtiyac yaranan mövzular kitabda demək olar ki, tam əhatə olunub.

Kitab 494 səhifədən, 73 fəsildən və 3857 sualdan ibarətdir. Hesab edirik ki, bu vəsait nəinki hüquqşünaslar, o cümlədən cəmiyyətimizin digər zümrəsi üçün elmi mənbə rolunu oynayacaq.

## Ədalət mühakiməsi əleyhinə cinayətlər

**Hüquq və İnsan Haqları İnstitutunun Ekspert Şurasının üzvü, hüquq üzrə fəlsəfə doktoru, dosent Romella Güləliyevanın “Nəzəriyyədə və Azərbaycan Respublikasının Qanunvericiliyində ədalət mühakiməsi əleyhinə olan cinayətlər” adlı kitabı işıq üzü görüb. Bu kitabda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq fəslində nəzərdə tutulmuş ədalət mühakiməsi əleyhinə olan cinayətlərə görə**




**cinayət məsuliyyətinin normativ hüquqi tənzimlənməsinin aktual məsələləri araşdırılır, həmçinin, qeyd edilən cinayət tərkiblərinin bəzi müddəalarının, onların qanunvericilikdə verilmiş təriflərinin və ifadələrinin gələcəkdə təkmilləşdirilməsinin zəruriliyi əsaslandırılır.**

Kitab tələbələr, magistrantlar, doktorantlar, dissertantlar, kriminologiya, cinayət hüququ və cinayət prosesi üzrə mütəxəssislər, habelə hüquq tətbiqetmə fəaliyyəti ilə məşğul olan əməkdaşlar üçün nəzərdə tutulub.

Kitab 2 dildə - Azərbaycan və rus dilində nəşr olunub, 98 səhifədən və 4 fəsildən ibarətdir.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Avropa İttifaqında genişlənmə hazırlığı

**"Köhnə dünya" növbəti genişlənmə barədə hazırlıqlara başlayır. Sammitin ilk günündə Avropa İttifaqı (Aİ) ölkələrinin liderləri bir sıra tarixi qərarlar qəbul ediblər. Gürcüstana Aİ-yə üzv olmaq üçün namizəd statusu verilib, Moldova və Ukrayna isə növbəti mərhələyə yüksəlib. Aİ yaxın zamanlarda hər iki ölkə ilə ittifaqa daxil olmaq məqsədi ilə substantiv danışıqlara başlayacaq. Əsas intriqa isə Ukrayna ilə bağlı olub. Macarıstanın baş naziri Viktor Orban Aİ-nin Kiyevlə danışıqlarının başlamasına son ana qədər müqavimət göstərib. Amma yekunda Ukrayna ilə bağlı məsələ müsbət sonluqla nəticələnib. Kiyev Brüsselin qərarını "həvəsləndirən, ruhlandıran və gücləndirən qələbə" adlandırıb.**



Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel özünün X sosial şəbəkəsində iki günlük sammitin birinci gününün yekunlarına əsasən yazıb ki, Avropa Şurası Ukrayna və Moldova ilə onların Aİ-ə qəbulu ilə bağlı danışıqlara başlamaq qərarına gəlib. Bundan əlavə, o, Gürcüstanı da sevindirib. Məlum olub ki, Tbilisiyə ittifaqa üzv olmaq üçün çoxdan gözlənilən namizəd ölkə statusu verilib. Yalnız Bosniya və Herseqovinanın bəxti gətirməyib. Ş.Mişel bildirib ki, Aİ ölkələrinin liderləri respublikanın ittifaqa daxil olması ilə bağlı danışıqlara hələ də yaşıl işıq yandırmayıblar.

Aİ-nin qərarları Kiyevdə böyük sevinclə qarşılanıb. Ukrayna prezidenti Vladimir Zelenski X sosial şəbəkəsində yazıb ki, Aİ-nin qərarları Ukrayna üçün, bütün Avropa üçün qələbədir: "Həvəsləndirən, ruhlandıran və gücləndirən qələbə". Moldova prezidenti Maia Sandu isə Brüsseldən gələn xəbərə belə reaksiya verib: "Bu, bizim tariximizin yeni səhifəsidir. İki il əvvəl heç kim 2023-cü ildə Avropa Komissiyasının Moldovanın Aİ-yə daxil olması ilə bağlı danışıqlara başlamağı təklif edəcəyini ağlına belə gətirmirdi... Biz avropalıyıq və bütün Avropa İttifaqı bunu tanıdı". Gürcüstanın baş naziri İrakli Qaribaşvili də vurğulayıb ki, namizəd statusunun verilməsi "Gürcüstanın gələcəyini Avropa demokratiyaları ailəsi ilə möhkəm bağlayacaq".

İki günlük Zirvə görüşündən gözləntilər əvvəlcədən mümkün olan ən yüksək səviyyəyə qaldırılmışdı. "Bizi qarşıda ən mühüm Avropa Şurası gözləyir. Qərar vermək vaxtıdır. Mən hamınızı kompromis ruhu və kollektiv məsuliyyət hissi ilə, ittifaqın maraq və dəyərlərini ön planda tutaraq müzakirələrə gəlməyə çağırıram", - Şarlz Mişel Aİ-nin üzv ölkəsinin liderlərinə müraciət etmişdi. Ş.Mişelin belə müraciətlə çıxış etməsi təsadüfi deyildi. Çünki Brüsselə hamı "güzəşt ruhu" ilə getmirdi. Məsələn, Macarıstanın baş naziri Viktor Orban uzun və qətiyyətlə Kiyevin Aİ-yə qəbulu ilə bağlı danışıqların dərhal başlaması ilə razılaşmayacağını bildirmişdi. Çərşənbə günü axşam milli parlamentdəki çıxışında cənab Orban demişdi ki, Macarıstan "Avropada sağlam düşüncənin səsidir". Cümə axşamı da səhər sammit başlamazdan əvvəl o, öz mövqeyini təkrarlamışdı: "Genişlənmə nəzəri məsələ deyil. Bu, ilkin şərtləri olan ləyaqətə əsaslanan, hüquqi cəhətdən təfərrüatlı bir prosesdir".

Aİ sammitinin uğursuzluqla bitməməsində maraqlı olan Viktor Orbanın həmkarları Macarıstanın baş nazirini güzəştə getməyə inandırmaq üçün fəal şəkildə müzakirələrə başlamışdılar. Belə ki, dekabrın 14-də sammit rəsmi başlamazdan əvvəl bu yaxınlarda Budapeştə gedən Şarl Mişel, bir həftə əvvəl Parisdə cənab Orbanı qəbul edən Fransa prezidenti Emmanuel Makron və əsas dəstəkçilərindən Almaniya kansleri Olaf Şolz Ukraynaya hərbi yardımı davam etdirən Macarıstan hökumətinin başçısı ilə birgə səhər yeməyi təşkil etmişdi. Sonra İtaliyanın Baş naziri Giorgia Meloni cənab Orbanla üzbəüz danışmışdı.

İrlandiyanın baş naziri Leo Varadkar isə demişd ki, "Ukrayna Aİ və ABŞ-dan dəstək almasa, Putin qalib gələcək. Sərt xətt tərəfdarlarının narahatlıqları cümə axşamı günü daha bir xəbərlə daha da artmışdı. "Reuters" agentliyi Aİ mənbələrinə istinadən xəbər vermişdi ki, Rusiyaya qarşı 12-ci sanksiyalar paketinin qəbulu gözlənilməz çətinliklərlə üzləşib. Paket Ukraynadan "Raiffeisen Bank International" bank qrupunu "Rusiyanı dəstəkləyən" şirkətlərin Ukraynanın qara siyahısından çıxarmağı tələb edən Avstriya tərəfindən bloklanmışdı. Yəni Vyana Ukraynanın Macarıstanın OTP bankını qara siyahıdan çıxarması üçün əvvəllər təxminən eyni üsullardan istifadə edən Budapeştin yolu ilə getməyə qərar vermişdi.Amma sonradan məlum oldu ki, Avstriya etirazını geri götürdü.

Amma bütün narahatlıq gözlənilməz nəticə ilə yekunlaşdı. Qərb mətbuatı yazır ki, səsvermə zamanı Viktor Orban iclas zalında iştirak etmədi. Sonradan məlumat yayıldı ki, səsvermə öncəsi Almaniya kansleri Olaf Şolts cənab Orbana fincan qəhvə içmək üçün zaldan çıxmağı təklif edib. Beləliklə də, Aİ-nin 26 ölkəsi yekdilliklə Ukraynanın növbəti mərhələyə çıxmasına səs verib. Bununla belə, sammitin ilk gününün nəticələrini şərh edərkən cənab Orban bildirib ki, Budapeşt Kiyevlə danışıqlara başlanılmasını "tamamilə mənasız, məntiqsiz və yersiz" hesab edir. Belə görünür, Macarıstanın Aİ ilə mübahisələri hələ çox davam edəcək.

***S.ELAY***
***XQ***

Qəzənfər Xalıqov – 125

# Dahi Nizaminin obrazını yaradan rəssam

**1939-cu ildə dahi Nizami Gəncəvinin 800 illik yubileyi ərəfəsində onun bədii obrazının yaradılması ilə bağlı rəssamlar arasında müsabiqə elan edilir. Müsabiqədə Azərbaycan rəssamları ilə yanaşı, keçmiş SSRİ-dən, Moskva, Sankt-Peterburq, Tbilisi və başqa şəhərlərdən 30-a qədər portret təqdim olunur. Xalq rəssamı Qəzənfər Xalıqovun yaratdığı portret müsabiqənin birincisi olur. O vaxtdan şairin rəssamlar tərəfindən yaradılacaq bütün obrazlarında Q.Xalıqovun yaratdığı Nizaminin surəti prototip kimi qəbul edilir.**



Qəzənfər Xalıqov Azərbaycan təsviri sənət tarixində iz qoymuş sənətkarlardan biridir. Rəngkarlıq, qrafika, teatr dekorasiya və kino rəssamlığı, eləcə də monumental boyakarlıq sahəsində onun yaddaqalan bədii yaradıcılıq işləri olub.

Çoxşaxəli bədii yaradıcılıq diapazonuna malik rəssam Qəzənfər Xalıqov 1898-ci ildə Bakının Qobu qəsəbəsində anadan olub. Bakıda orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə daxil olub. M.Gerasimovdan sənət dərsi alıb. Sonra o, C.Məmmədquluzadənin dəvəti ilə məşhur "Molla Nəsrəddin" jurnalında işə başlayır. Rəssam bu barədə "Bakı" qəzetinin 27 may 1967-ci il nömrəsində yazırdı: "1924–25-ci illərdə mən "Gənc işçi" qəzetində rəssam işləyirdim. Bir gün işə gələndə dedilər ki, səni "Molla Nəsrəddin" jurnalına çağırırlar. Getdim. Çox sıxıldığımı görən Mirzə Cəlil dedi ki, cavan rəssamsan, gəl, bizim jurnalda da qələmini işlət. Dedim ki, sizin jurnalda işləmək üçün kifayət qədər təcrübəm yoxdur. Bunun cavabında Mirzə Cəlil mənə dedi: "Hamı əvvəl təcrübəsiz olur. Heç kəs birdən-birə böyük rəssam olmayıb. Görürsən, bu saat bizim rəssamlarımız azdır. Gərək cavanlardan təzə-təzə rəssamlar yetişsin"...

Beləcə, Qəzənfər Xalıqov böyük sənətə uğurlu addımlarını atıb. Xalq rəssamının rəngkarlıq işlərindən "Qadınlar şöbəsi", "Firdovsinin dəfni", "Çoban Cümşüdün portreti", "Həyat yoldaşının portreti", "Nizaminin portreti" əsərlərini xüsusi qeyd etmək olar. Qrafika sahəsində də "Koroğlu", "Koroğlu at belində", "Xaqani Şirvani", "Xaqani zindanda", "Məhəmməd Füzuli" kimi uğurlu işləri var. Rəssamın M.Seyidzadənin "Nərgiz" poemasına, N.Gəncəvinin "Xosrov və Şirin", "İsgəndərnamə" poemalarına çəkdiyi illüstrasiyalar, Ş.Rustaveli "Pələng dərisi geymiş pəhləvan", Ə.Vahid "Qəzəllər" (1938), S.Rəhimov "Aynalı", A.Şaiq "Qoçpolad", S.Vurğun "İstiqbal təranəsi" kitablarına verdiyi bədii tərtibat təqdirəlayiq işlərindəndir. Həmçinin "Leyli və Məcnun", "Əsli və Kərəm" kimi məşhur tamaşaların səhnə və geyim tərtibatı Qəzənfər Xalıqova məxsusdur. Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində tələbələrinə uzun illər təsviri sənətin sirlərini öyrədib.

**Bacısı qızı Gülşən Adıgözəlovanın bildirdiyinə görə, dayısı tez-tez onlara Nizaminin portretini necə yaratması barədə danışırdı:**

– Deyirdi, portreti yaradıncıya qədər Nizaminin bütün əsərlərini dəfələrlə oxuyub. Əvvəlcə o portret dayımın düşüncəsində yaranıb, bütövləşib, sonra onu işləməyə başlayıb. Dayım bəşəri dəyərlərə qiymət verən insan idi. Fikir verirsinizmi, çox vaxt mütəfəkkirlərin portretini yaradıb. Ondan çox şey öyrənə bilərdik, amma gənc olmuşuq, bunu dərk edə bilməmişik. İndi düşünüb, xatırlayıb, yadigar əməllərindən öyrənirik.

**Bacısı oğlu Nazim Əliyevin xatirəsi:**

– Bir dəfə dayımdan soruşdum ki, "Xaqaninin dəfni" əsərində elə bil camaat yüyürür. Dedi, əhsən, düzgün anlamısan, çalışmışam onu verim. Ərəbistanda dəfnə insanlar yüyürək gedirlər. Bir dəfə də axşam yığışmışdıq onun evinə, Xalq rəssamı fəxri adını alması münasibəti ilə təbrik edirdik. Ona zəng gəldi, bizə susmaq işarəsi verib, düz 1 saat yarım telefonla danışdı və sonra dedi ki, Ulu öndər idi, məni təbrik edirdi. Bu iki xatirə qalıb yaddaşımda...

**Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov:**

– Qəzənfər Xalıqov Azərbaycan təsviri sənətini yaradanlardan biridir. Rəssamlıq sənəti bu gün inkişaf edir və bu yüksəlişdə Qəzənfər müəllimin mühüm yeri var. Son dərəcə kübar adam idi. Onun bizə əmanət qalan işlərində göstərir ki, adı rəssamlıq tarixinə qızıl hərflərlə yazılan sənətkardır.

Azərbaycan Milli İncəsənət Muzeyində unudulmaz sənətkarın "Firdovsinin dəfni" və "Nizaminin portreti" əsərləri nümayiş olunur. Qəzənfər Xalıqov həmçinin "Abbasın bədbəxtliyi" cizgi filmində, "Sehrli xalat", "İstintaq davam edir" bədii filmlərində quruluşçu rəssam kimi çalışıb.

Görkəmli rəssam Qəzənfər Xalıqov 1981-ci ildə Bakıda vəfat edib. II Fəxri xiyabanda dəfn edilib.

***R.QURBANLI***
***XQ***

# İqtisadi subyektlərin rəhbərlərinin nəzərinə!

Azərbaycan Respublikasının Auditorlar Palatası nəzərinizə çatdırır ki, qanunvericiliyin tələblərinə uyğun olaraq aşağıda göstərilən iqtisadi subyektlər 2023-cü il üzrə maliyyə hesabatlarının düzgünlüyünü yoxlatdırmaq üçün müstəqil (kənar) auditor cəlb etməlidirlər:

| Sıra №si | Məcburi audit subyektləri | Məcburi auditdən keçmənin qanunvericilikdə təsbiti və əsası |
|---|---|---|
| 1. | İctimai əhəmiyyətli qurumlar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı qanununun 12-ci maddəsinə əsasən. |
| 2. | Məhdud məsuliyyətli cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4-cü maddəsində nəzərdə tutulan şərtlərlə 2019-cu il 3 may tarixli 1584-VQD |
| 3. | Səhmdar cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107.6-cı maddəsində nəzərdə tutulan şərtlərlə 2019-cu il 3 may tarixli 1584-VQD |
| 4. | Banklar və digər kredit təşkilatları | "Banklar haqqında" Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı qanununun 8, 9, 44, 45, 46-cı və s. maddələrinə əsasən |
| 5. | Sığorta təşkilatları və cəmiyyətləri | "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı qanununun 74-cü və 93-cü maddələrinə əsasən |
| 6. | İnvestisiya fondları | "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı qanununun 26-cı və 48-ci maddələrinə əsasən |
| 7. | Maliyyə-sənaye qrupları | "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 1996-cı il 23 aprel tarixli 69-IQ №-li qanununun 16-cı və 17-ci maddələrinə əsasən |
| 8. | Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər) | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı qanununun 12.3-cü maddəsində nəzərdə tutulan şərtlərlə |
| 9. | Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı qanununun 12.2-ci maddəsinə əsasən |
| 10. | Publik hüquqi şəxslər | "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ saylı qanununun 12-1-ci və publik hüquqi şəxslərin nizamnamələrinə əsasən |
| 11. | Siyasi partiyalar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı qanununun 14.6-cı maddəsinə əsasən |
| 12. | Kənd təsərrüfatı kooperativləri | "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli № 270-VQ saylı qanunun 5.4-cü maddəsinə əsasən |
| 13. | Bələdiyyələr | "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli № 772-IQ saylı qanunun 13-cü maddəsinə əsasən |
| 14. | İnvestisiya şirkətləri, fond birjaları, klirinq təşkilatları və investisiya fondları | "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli № 1284-IVQ saylı qanunun 61-ci maddəsinə əsasən |
| 15. | Nizamnamələrində (əsasnamələrində) auditdən keçmələri ehtiva olunan qurumlar | Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman, sərəncamlarına və digər sənədlərə əsasən |

Audit yoxlaması məcburi və ya könüllü (təsərrüfat subyektlərinin öz təşəbbüsü ilə) ola bilər. Qanuna görə öz maliyyə hesabatlarını dərc etdirməli olan təsərrüfat subyektləri üçün, habelə qanunla bilavasitə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan audit məcburi, digər hallarda isə könüllüdür;

müstəqil (kənar) audit ölkə iqtisadiyyatında maliyyə şəffaflığının təmin olunmasında, maliyyə vəsaitlərindən səmərəli və təyinatı üzrə xərclənməsində, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə, kölgə iqtisadiyyatının azaldılmasında əvəzsiz rola malikdir və auditorlar tərəfindən məcburi və ya könüllü auditlərin nəticələri üzrə verilən auditor hesabatının (auidtor rəyinin) iqtisadi subyektlərin maliyyə hesabatlarında yol verilən nöqsan və çatışmazlıqların vaxtında aşkar edilməsində və aradan qaldırılmasında çox böyük əhəmiyyəti vardır;

iqtisadi subyektlər auditor seçimində müstəqildirlər. Sərbəst auditorlar və auditor təşkilatları barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə etmək olar (www.audit.gov.az);

auditorlar palatası bu istiqamətdə sizin hər bir sorğunuzu cavablandırmağa və zəruri kömək göstərməyə hazırdır.

**Azərbaycan Respublikasının Auditorlar Palatası**

Təqdimat

# Polkovnikin memuarları



**Azərbaycan Hərb Tarixi Muzeyində polkovnik Mehman Hacalıyevin "Gördüklərim, bildiklərim, eşitdiklərim" adlı memuar-xatirə kitabının təqdimat mərasimi təşkil edilib.**

Tədbirdə Muzeyin rəisi Əzizağa Qənizadə, I Qarabağ müharibəsinin qaziləri, polkovnik Hafiz Əliyev, polkovnik-leytenant Elsəfa Qarayev, Hafiz Əmirov və başqaları çıxış edərək kitab barədə öz fikirlərini bölüşüblər.

Qeyd edilib ki, Ermənistan–Azərbaycan münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla insanın taleyinə ciddi təsir göstərib. Memuar-xatirə kitabında erməni millətçilərinin xalqımıza qarşı törətdikləri soyqırımıları və qanlı cinayətlər barədə ətraflı məlumatlar öz əksini tapıb. Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn prinsip və normalarına zidd olaraq, mülki əhalini məqsədyönlü şəkildə əsas hədəf kimi seçiblər. Nəticədə, dinc sakinlərin amansız şəkildə sistematik və kütləvi qırğını təşkil edilib, soyqırımı törədilib.

Vurğulanıb ki, II Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa edib. Bu Qələbə tarixdə əbədi qalacaq.

Daha sonra Mehman Hacalıyevin ömür yoluna həsr olunmuş slayd-şou nümayiş olunub.

***L.QURBANOVA***
***XQ***

## "Aynur 119" ASC-nin 2022-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabatı

Ümumi gəlir 18 min manatdır.

2022-ci ildə cəmiyyətin həmin gəlirlərin əldə edilməsinə çəkilən faktiki xərclər aşağıdakılardan ibarət olmuşdur:

| | |
|---|---|
| Əmək haqqı | 13 440,00 |
| DSMF-yə ayırmalar | 2 352,00 |
| İcbari tibbi sığorta haqqı | 268,80 |
| İşsizlik təminatı üzrə ayırmalar | 67,20 |
| Əmlak vergisi | 223,21 |
| İşçilərin bədbəxt haqdisədən icbari sığortası | 26,88 |
| Bank xidməti | 174,79 |
| Mobil telefon xərci | 30,00 |
| Cəmi xərclər | **16 582,88** |

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 275 (30391) 16 dekabr 2023-cü il, şənbə

İdman xəbərləri

## “Qarabağ” “səpələnmişlər səbəti”ndə

**UEFA Avropa Liqasında pley-off mərhələsinin püşkü dekabrın 18-də atılacaq.**




H qrupunu ikinci pillədə başa vuraraq pley-offa adlayan “Qarabağ” püşkatmaya “Səpələnmişlər səbəti”ndən qatılacaq. Ağdam klubu bu mərhələdə Çempionlar Liqasından gələn səkkiz kollektivdən (“Qalatasaray” (Türkiyə), “Lans” (Fransa), “Braqa” (Portuqaliya), “Benfika” (Portuqaliya), “Feyenoord” (Niderland), “Milan” (İtaliya), “Yanq Boyz” (İsveçrə), “Şaxtyor” (Donetsk, Ukrayna) biri ilə qarşılaşacaq.

Pley-off mərhələsi 2024-cü il fevralın 15-də və 22-də keçiriləcək. Səkkiz cütün qalibi 1/8 finalın püşkatmasında Avropa Liqasında qruplarını lider kimi tamamlayan komandalara qoşulacaqlar.

## Qadın futbolçular, irəli!

**Qadın futbolçulardan ibarət milli komandaların yeni reytinq cədvəli açıqlanıb.**



FIFA-nın rəsmi saytında verilən məlumata görə, Azərbaycan yığmasının aktivində 1305.48 xal var. Kollektiv bu göstərici ilə iki pillə irəliləyərək 76-cı sırada qərarlaşıb.

Xatırladaq ki, UEFA Millətlər Liqasının C divizionunda Kipr, Monteneqro və Farer adaları birlikdə eyni qrupda mübarizə aparan yığmamız 5 qələbə və 1 heç-heçə ilə B Liqasına vəsiqə qazanıb.

## Avropa Kuboku Bakıda

**Bakıda ilk dəfə bədii gimnastika üzrə Avropa Kuboku yarışı təşkil ediləcək.**




2024-cü ildə Avropa Gimnastikasının təşəbbüsü ilə reallaşacaq yarış yeni formatı ilə fərqlənəcək. Qitə turnirinin proqramına “çarpaz-qarşılaşmalar” salınıb. Bu, gimnastların təsnifat yarışlarından sonra final mərhələsinə yüksəlmələri üçün püşkatma əsasında birbaşa bir-birləri ilə yarışdıqları mübarizədir.

Çoxnövçülük, komanda hesabı və fərdi proqramda keçirilən yarışlarda təkcə böyüklər deyil, gənclər də iştirak edəcəklər.

Avropa Kuboku yarışı 2024-cü il martın 29-dan 31-dək Milli Gimnastika Arenasında təşkil ediləcək.

*Leyla SABİRQIZI*
*XQ*



# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

### *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



Rəssamın ad günü

## Səttarın rənglər aləmi ilmələrdə

**Xalça Muzeyində görkəmli fırça ustası Səttar Bəhlulzadənin doğum günü ilə əlaqədar “Səttarın arzusu” xalçası nümayiş olunur. Müasir dövrün unikal sənət əsərlərindən olan bu xalça həm də muzeyin qədim əşyalar kolleksiyasında qorunub saxlanılır.**

Xalq rəssamı Eldar Mikayılzadənin Səttar Bəhlulzadəyə həsr etdiyi xalçanın bədii tərtibatında 570-dən çox rəng çalarından istifadə olunub. O, uşaqlıqdan tanıdığı və müəllimi saydığı Səttar Bəhlulzadəyə sonsuz məhəbbətini bu xalçada ilmələrə köçürmüşdür. E.Mikayılzadə böyük sənətkarın 34 illik yaradıcılıq yoluna nəzər salıb, “Mənim anam”, “Cıdır düzü”, “Kəpəzin göz yaşları”, “Torpağın arzusu”, “Suraxanının qədim alovları”, “Gülüstan”, “Abşeron natürmortu”, “Azərbaycan nağılı”, “Batabat”, “Gəlin guşəsi” kimi, ümumilikdə, 36 rəngkarlıq əsərindən bəhrələnərək müasir dövr xalça sənətinin şedevrini yaratmışdır.



Qeyd edək ki, xalçaçı-rəssam bu nadir əsəri 2012-ci ildə tamamlayıb. “Aznar” Qapalı Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri, xeyriyyəçi Fərhad Əhmədov isə 2019-cu ildə bu əsəri alaraq Xalça Muzeyinə hədiyyə edib.

*Fidan SALMANOVA*
*XQ*

## Balerina “Qazaxıstan gözəli”dir

**Bu günlərdə Astanada “Qazaxıstan gözəli” şou-müsabiqəsi başa çatıb. Almatı şəhərindən olan 21 yaşlı balerina Sabina İdrisova bu maraqlı yarışın qalibi tituluna layiq görülüb.**



Qazaxıstan mətbuatı yazır ki, Almatı Xoreoqrafiya Məktəbini bitirən Sabina bir müddət Astana Balet Teatrında çalışıb. Bundan sonra isə model kimi fəaliyyət göstərmək niyyətindədir.

Qeyd edək ki, “Qazaxıstan gözəli” müsabiqəsində iştirak etmək üçün ölkənin bütün regionlarında seçim turları təşkil olunub. Müsabiqənin son mərhələsinə 25 gənc qız iştirak edib.

“Qazaxıstan gözəli” müsabiqəsinin hakimlər heyətinə “Miss Qazaxıstan” qurumunun rəhbəri, model Ayday İsayeva rəhbərlik edib. Jurinin tərkibinə, həmçinin yarışın ötənilki qalibi Tomiris Kakimova, tanınmış qazax aktyoru Erkebulan Toktar, qırğızıstanlı dizayner Arzubek Bonama və başqaları daxil olublar.

Sonda xatırladaq ki, müsabiqənin “Tamaşaçı rəğbətinə görə” nominasiyasında Adelina Balımbəyeva birinci olub.

*XQ*

Hava

## Gün yağmursuz keçəcək, dumanlı olacaq



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, dekabrın 16-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Lakin gecəyə doğru bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 4-6°, gündüz 8-11° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu olacaq, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 8-13° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 3-8° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

Turizm

## Belarusda Azərbaycan dünyası

**Azərbaycan Respublikasının Belarusdakı səfirliyinin təşəbbüsü və dəstəyi ilə ölkədə populyarlığı ilə seçilən və uşaqlar üçün nəzərdə tutulmuş “Səyahətlər dünyası” seriyasından Dmitri Koşevar və Kristina Qobenanın müəllifliyi ilə “Azərbaycan” adlı kitab nəşr edilib.**



Səfirlikdən mətbuata bildiriblər ki, yüksəkkeyfiyyətli rəngli şəkillərdən ibarət kitabda Azərbaycan Respublikasının dövlət rəmzləri, qədim tarixi, görkəmli şəxsiyyətləri, mədəniyyəti, zəngin mətbəxi, flora və faunası, qoruq və milli parkları, eləcə də müxtəlif şəhərləri və tarixi abidələri haqqında sadə dildə məlumat verilir.

Kitabda ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanın qurulmasında müstəsna rolu vurğulanır.

Belaruslu oxucuların Azərbaycan haqqında biliklərinin dərinləşdirilməsi məqsədi daşıyan kitabın ilk səhifəsində səfir Ülvi Baxşəliyevin oxuculara müraciəti yer alıb.

*XQ*

Maqazin

## Kanada Depardyeni cəzalandırdı

**Kanadanın Kvebek əyalətinin hakimiyyət orqanları seksist ifadələrə görə aktyor Jerar Depardyeni regionun ən yüksək mükafatından məhrum edib.**



“Jerar Depardyenin kamera qarşısındakı qalmaqallı şərhləri beynəlxalq ictimaiyyəti şoka salıb. Onun davranışı Kvebek Milli Ordeninin üzvlərinin reputasiyasına kölgə salır”, – deyə əyalət rəhbəri Fransua Leqo bildirib.

Əyalət rəhbəri Depardyenin 2018-ci ildə Şimali Koreya dövlətinin yaradılmasının 70 illiyi ilə bağlı KXDR-ə səfəri zamanı dediklərini nəzərdə tutub.

*XQ*

Sağlamlıq

## İnfarktsız ürək: hansı qida gərək?

**Ürək-damar sisteminin yaxşı işi keyfiyyətli qidadan başlayır. Bəs rasiona hansı qidalar əlavə olunmalıdır ki, infarktdan qorunaq?**



Dietoloq həkim Mixail Ginzburq əsasən, damar tutan qidalardan uzaq durmağın vacibliyini vurğulayıb. Bildirib ki, damarların xroniki xəstəlikləri infarkt və insultun əsas səbəbidir. Həkim ürək-damar sisteminin ömrünü uzatmaq üçün balıq, zeytun yağı, mərci, tərəvəz, meyvə və s. qidaların mütəmadi qəbul edilməsini tövsiyə edib.

M.Ginzburq onu da bildirib ki, ürəkdə sərbəst radikalları nar da zərərsizləşdirir.

*Z.HÜSEYNLİ*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3277
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır
00:00